

Müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi təkmilləşdirilir

2



Orqan transplantasiyası ilə bağlı qaydalara dəyişikliklər edildi

2



Milli Məclisin Səhiyyə komitəsinin payız sessiyası üçün iş planı təsdiq edildi

3


# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

№ 17-18 (777) 30 sentyabr 2023-cü il | Qəzet 1991-ci ildən nəşr olunur | www.tibbqazeti.az


## Qarabağ sülh həyatına qayıdır



2

## Bakıda qida standartlarının təkmilləşdirilməsinə dair beynəlxalq tədbir keçirilib




4

## Səhiyyə sahəsində Pakistan - Azərbaycan əməkdaşlığının inkişafı müzakirə edilib



4

## İcbari tibbi sığortanın Yenilənmiş Xidmətlər Zərfinin təqdimatı olub




5

## Tibbi xidmətlərin keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş yeni texnologiyalar tətbiq ediləcək




6

### *Aforizm*

*İnsanları ayıran divarlar göylərə kimi qalxmır.*

*Georgi Krasovski*

# Müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi təkmilləşdirilir



**Prezident İlham Əliyev müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Fərman imzalayıb.**

AZƏRTAC xəbər verir ki, Fərmana əsasən, 2024-cü il iyulun 1-dən rayon, şəhər, şəhərdə rayon çağırış komissiyaları tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi zamanı sıradankənar həqiqi hərbi xidmətə yararlılıq haqqında, sağlamlıq vəziyyətinə görə həqiqi hərbi xidmətə müvəqqəti yararsız hesab edilməklə çağırışa möhlət verilməsi haqqında, dinc dövrdə həqiqi hərbi xidmətə yararsızlıq, müharibə dövründə məhdud yararlılıq haqqında, həm dinc dövrdə, həm də müharibə dövründə hərbi xidmətə yararsızlıq haqqında qərarlardan birinin qəbul edilməsi üçün həmin vətəndaşların yekun tibbi müayinəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçiriləcək.

Eyni zamanda, yekun tibbi müayinə Nazirliyin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən hərbi həkim komissiyalarının tibbi müayinə nəticələri və müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların əyani tibbi müayinəsi əsasında aparılacaq. Yekun tibbi müayinə ilə bağlı məlumatların toplanılması və həmin müayinənin nəticələrinin rəsmiləşdirilməsi Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin «Hərbi-həkim ekspertizası və tibbi şəhadətləndirilmə» altsistemi üzərindən həyata keçiriləcək.

Sənədə əsasən, Nazirlər Kabinetinə bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla altı ay müddətində müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi sahəsində göstərilən xidmətlərin optimallaşdırılması və elektronlaşdırılması ilə bağlı normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək, bu Fərmanın 1-ci və 2-ci hissələrindən irəli gələn maliyyələşməni təmin etmək, Agentliyin inzibati bina ilə təmin edilməsi üçün zəruri tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək, bu Fərmandan irəli gələn digər məsələləri həll etmək tapşırılıb. Nazirliyə isə 2024-cü il iyulun 1-dək altsistemin təkmilləşdirilməsini təmin etmək, bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görmək həvalə edilib.

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 aprel tarixli 163 nömrəli Qərarı ilə təsdiq edilmiş «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin Siyahısı»nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Səhiyyə sahəsində təchizat və təminatla bağlı fəaliyyətin təkmilləşdirilməsi və «Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 9 mart tarixli 2061 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 aprel tarixli 163 nömrəli Qərarı ilə təsdiq edilmiş «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin Siyahısı"na aşağıdakı məzmunda 6.4-cü bənd əlavə edilsin:

«6.4. «İnnovasiya və Təchizat Mərkəzi» publik hüquqi şəxsi».

**2.** Bu Qərar 2023-cü il yanvarın 1-dən tətbiq edilir.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**
*Bakı şəhəri, 31 avqust 2023-cü il*

# Orqan transplantasiyası ilə bağlı qaydalara dəyişikliklər edildi

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə orqan transplantasiyası ilə bağlı qaydalara dəyişikliklər edilməsi barədə iki sənəd imzalayıb.**

Bunlardan birincisi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 8 may tarixli 120 nömrəli Qərarı ilə təsdiq edilmiş «Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsi üçün tələb olunan əlavə Şərtlər»də dəyişiklik edilməsi barədə Nazirlər Kabinetinin Qərarıdır.

Sənədə əsasən, həmin Şərtlərin 15-ci hissəsi aşağıdakı redaksiyada verilir:

«15. İnsan orqan və (və ya) toxumalarının dövriyyəsi üçün tələb olunan əlavə şərtlər:

15.1. gözün buynuz qişasının dövriyyəsi üçün tələb olunan əlavə şərtlər:

15.1.1. gözün buynuz qişasının idxalı üçün gözün buynuz qişasının Göz Bankı Assosiasiyaları Qlobal İttifaqı (Global Alliance of Eye Bank Associations) tərəfindən akkreditasiya olunmuş Göz Bankı tərəfindən tədarük olunmasını təsdiq edən sənəd;

15.1.2. gözün buynuz qişasının ixracı üçün gözün buynuz qişasını qəbul edən tibb müəssisəsinin Göz Bankı Assosiasiyaları Qlobal İttifaqı (Global Alliance of Eye Bank Associations) tərəfindən akkreditasiya olunmuş Göz Bankının olmasını təsdiq edən sənəd.».



Qəbul edilmiş ikinci qərar Nazirlər Kabinetinin 2022-ci il 3 sentyabr tarixli 345 nömrəli Qərarı ilə təsdiq edilmiş «Transplantasiya məqsədilə donor orqanların idxalı və ixracı Qaydası»nda dəyişiklik edilməsi barədə Nazirlər Kabinetinin Qərarıdır.

Bu sənədə əsasən, «Transplantasiya məqsədilə donor orqanların idxalı və ixracı Qaydası»na aşağıdakı məzmunda 2.3.4-cü yarımbənd əlavə olunub:

«2.3.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 8 may tarixli 120 nömrəli Qərarı ilə təsdiq edilmiş «Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsi üçün tələb olunan əlavə Şərtlər»in 15-ci hissəsi ilə müəyyən edilmiş təsdiqedici sənədlər (əlavə şərtlər olduğu halda).».

# Qarabağ sülh həyatına qayıdır

**Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Qarabağda antiterror tədbirlərindən sonra gedən proseslərlə bağlı bir neçə məlumat yayıb.**

Bildirilir ki, Qarabağın erməni sakinləri ilə təmaslar üzrə müəyyən edilmiş məsul şəxs Ramin Məmmədovun Xocalı şəhərində Qarabağın erməni sakinlərinin təmsilçiləri ilə növbəti görüşündə bundan əvvəl Yevlax şəhərində müzakirə edilmiş məsələlərin həlli istiqamətində atılan addımlardan razılıq ifadə olunub.

Konstruktiv mühitdə keçən görüşdə Ramin Məmmədov bundan sonrakı mərhələdə həyata keçiriləcək tədbirlər haqqında məlumat verib. Qeyd olunub ki, bəzi yaşayış məntəqələrində tənha vəziyyətdə müəyyən edilmiş ermənəsilli yaşlı sakinlərə ilkin tibbi yardım göstərilib və onlar həkim nəzarəti altında saxlanılırlar. Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndələrinin həmin şəxslərlə görüşünə şərait yaradılması, onların ailə üzvlərinə və ya müvafiq tibb müəssisələrinə təhvil verilməsi təklif edilib.

Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin sosial-humanitar, iqtisadi və infrastruktur məsələlərin həlli üzrə rəhbərlik etdiyi işçi qrupun üzvlərinin cari fəaliyyət istiqamətlərini müəyyən etmək məqsədilə Xankəndi şəhəri də daxil olmaqla, ərazidə kommunal, səhiyyə xidmətləri və digər mülki fəaliyyətlə məşğul olan müvafiq nümayəndələrlə görüşünün təşkili və birgə işçi qrupunun yaradılması barədə razılıq əldə olunub.

Təklif edilib ki, Xankəndi şəhəri yaxınlığında və ya Xocalı istiqamətində səhiyyə xidmətlərinin Azərbaycan və erməniəsilli tibb heyəti tərəfindən birgə göstərildiyi səhra hospitalı təşkil olunsun. Həmçinin Azərbaycan və erməni xidmət personalı tərəfindən mobil qida təminatı xidmətinin yaradılması təklifi irəli sürülüb.

Xroniki ağır xəstəliklərdən əziyyət çəkən və ya xüsusi cərrahiyyə əməliyyatına ehtiyacı olan şəxslərə zəruri tibbi yardımın göstərilməsinə hazırlıq ifadə olunub.

Bununla yanaşı, görüşdə Azərbaycan və erməniəsilli tibb işçilərindən ibarət səyyar birgə həkim briqadalarının formalaşdırılması, həmin briqadalar tərəfindən ucqar kəndlərdə tənha və tibbi xidmətə ehtiyacı olan şəxslərə xidmət göstərilməsinin vacibliyi vurğulanıb.

Görülmüş işlərin yekunlarının müzakirəsi və gələcək addımları müəyyənləşdirmək məqsədilə tezliklə növbəti görüşün keçirilməsi barədə razılıq əldə edilib.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının digər məlumatında bildirilir ki, 2023-cü il sentyabrın 25-də Xankəndi şəhəri yaxınlığında yanacaqdoldurma məntəqəsində partlayış baş verib. Hadisə nəticəsində çoxlu sayda ölən və yaralananlar var.

Bununla əlaqədar yaralanan şəxslərə yardım məqsədilə ilkin olaraq hərəsində 200 nəfərin müalicəsi üçün yanığa qarşı tibbi ləvazimatlar, sarğı materialları, əlcəklər, dərman preparatları (spreylər, kremlər, ağrıkəsicilər, antibiotiklər və s.) daşıyan iki təcili tibbi yardım maşını Ağdam - Əsgəran - Xankəndi yolu vasitəsilə yola salınıb.

Yevlax şəhərində keçirilmiş görüşdə Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələrinin, ilk növbədə, bağçaların, təcili tibbi yardım və yanğınsöndürmə xidmətlərinin yanacaq-sürtkü materialları ilə təmin edilməsinə dair xahişinə uyğun olaraq, Ağdam - Əsgəran - Xankəndi yolu vasitəsilə bu məqsədlə 30 ton benzin, 34 ton dizel yanacağı, növbəti dəfə isə daha 32 ton benzin yola salınıb.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 aprel tarixli 188 nömrəli Qərarı ilə təsdiq edilmiş «Dezoksiribonuklein turşusu (DNT) analizinin aparılması üçün bioloji materialın götürülməsi, onun uçotu, saxlanılması, istifadəsi, verilməsi və məhv edilməsi Qaydası»nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI



Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, «Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında» Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1197-VQ nömrəli Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 232 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2023 cü il 11 aprel tarixli 2099 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 aprel tarixli 188 nömrəli Qərarı ilə təsdiq edilmiş «Dezoksiribonuklein turşusu (DNT) analizinin aparılması üçün bioloji materialın götürülməsi, onun uçotu, saxlanılması, istifadəsi, verilməsi və məhv edilməsi Qaydası»nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.3.2-ci yarımbəndə «DİN-in kriminalistika xidmətinin əməkdaşı» sözlərindən sonra «(bu Qaydanın 2.3.3-cü yarımbəndində göstərilənlər istisna olmaqla)» sözləri əlavə edilsin.

**2.** 2.3.2-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.3.3-cü yarımbənd əlavə edilsin:

«2.3.3. Azərbaycan Respublikasına qarşı hərbi təcavüz nəticəsində, o cümlədən ərazilərin işğaldan azad olunması dövründə xəbərsiz itkin düşmüş şəxslərin bioloji qohumlarından (bioloji valideynlərdən və ya övladları ilə birlikdə ər-arvaddan) bioloji material məhkəmə, əməliyyat-axtarış fəaliyyətini, təhqiqat və ya istintaqı həyata keçirən orqanların qərarına əsasən Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (bundan sonra - DTX) əməkdaşı tərəfindən.».

**3.** 2.4-cü bəndə «əməkdaşı» sözündən sonra «, Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində aşkar edilmiş naməlum meyitlərin müayinəsi zamanı isə DTX-nin əməkdaşı» sözləri əlavə edilsin.

**4.** 2.9-cu bəndə «DİN Kriminalistik Tədqiqatlar İdarəsinə» sözlərindən sonra «(bu Qaydanın 2.9-1-ci bəndində göstərilənlər istisna olmaqla)» sözləri əlavə edilsin.

**5.** Aşağıdakı məzmunda 2.9-1-ci bənd əlavə edilsin:

«2.9-1. Azərbaycan Respublikasına qarşı hərbi təcavüz nəticəsində, o cümlədən ərazilərin işğaldan azad olunması dövründə xəbərsiz itkin düşmüş şəxslərin bioloji qohumlarından (bioloji valideynlərdən və ya övladları ilə birlikdə ər-arvaddan) və işğaldan azad olunmuş ərazilərdə aşkar edilmiş naməlum meyitlərdən müvafiq qaydada götürülmüş bioloji material və məlumat DNT analizinin aparılması, DNT profilinin əldə olunması və DNT Məlumat Bankında saxlanılması üçün DTX-nin Hərbi-tibb baş idarəsinə göndərilir.».

**6.** 2.11.3-cü yarımbənddə «və ya DİN» sözləri «, DİN və ya DTX» sözləri ilə əvəz edilsin.

**7.** 3.1-ci bəndə «İdarəsində» sözündən sonra «, bu Qaydanın 2.9-1-ci bəndində nəzərdə tutulmuş hallarda isə DTX-nin Hərbi-tibb baş idarəsində» sözləri əlavə edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**
*Bakı şəhəri, 6 sentyabr 2023-cü il*

# Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin MƏLUMATI

**Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən 19-20 sentyabr 2023-cü il tarixində həyata keçirilmiş uğurlu lokal antiterror tədbirləri nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa olunmuşdur.**

Lokal antiterror tədbirləri zamanı Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 192 hərbi qulluqçusu şəhid olmuşdur.

Şəhid olmuş hərbçilərdən 180 nəfər Müdafiə Nazirliyinin, 12 nəfər isə Daxili İşlər Nazirliyinin hərbi qulluqçularıdır. Şəhid olanlardan 1 nəfər də mülki şəxsdir.

11 nəfərin şəxsiyyəti Məhkəmə Tibbi Ekspertiza tərəfindən məhkəmə genetik müayinələr aparıldıqdan sonra müəyyənləşdiriləcəkdir.

Eyni zamanda, lokal antiterror tədbirləri nəticəsində 511 hərbi qulluqçumuz və 1 mülki şəxs yaralanmışdır.

Yaralıların ən qısa zamanda müalicəsi üçün yüksək səviyyəli peşəkar həkim briqadaları fəaliyyət göstərir və bütün zəruri tibbi tədbirlər görülür. Yaralı hərbçilərimizin tezliklə öz sağlamlıqlarına qovuşmasını arzu edirik.



Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olmuş bütün hərbi qulluqçularımızın əziz xatirəsini yad edir, ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

**Milli Məclisin Səhiyyə komitəsinin 2023-cü ilin payız sessiyasında birinci iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda komitə sədri Əhliman Əmiraslanov gündəliyə 2 məsələnin - Milli Məclisin 2023-cü il yaz və növbədənkənar sessiyaları dövründə Səhiyyə komitəsində görülən işlər barədə hesabatın və Səhiyyə komitəsinin 2023-cü ilin payız sessiyası üçün iş planının daxil edildiyini bildirib.

# Milli Məclisin Səhiyyə komitəsinin payız sessiyası üçün iş planı təsdiq edildi




Komitə sədri diqqətə çatdırıb ki, hesabat müddətində komitənin 10 iclası keçirilib, həmin iclaslarda 20 məsələ müzakirə edilib. O, baxılan məsələlər haqqında fikirlərini söyləyib, qəbul olunan qanunların əhəmiyyətindən, xüsusən «Dərman vasitələri haqqında» Qanunda dəyişiklik edilməsi barədə qanunun tətbiqi sayəsində bu sahədə əldə olunan nailiyyətlərdən danışıb.

Hesabat dövründə komitəyə daxil olan müraciətlərdən bəhs edən Əhliman Əmiraslanov sayı 300-ə yaxın olan bu ərizə və şikayətlərdə, həmçinin vətəndaşlar və seçicilərlə keçirilən görüşlərdə qaldırılan məsələlərlə bağlı müvafiq tədbirlərin görüldüyünü diqqətə çatdırıb.

Gündəliyin ikinci məsələsi olan Milli Məclisin Səhiyyə komitəsinin 2023-cü ilin payız sessiyası üçün iş planı ilə bağlı Əhliman Əmiraslanov diqqətə çatdırıb ki, qarşıdakı sessiyada komitəyə qanunvericilik subyektlərindən daxil olacaq qanun layihələrinin, o cümlədən Büdcə zərfinə daxil olan qanun layihələrinin müzakirəsi, onlara rəy və təkliflərin hazırlanması nəzərdə tutulub. Həmçinin «Tibbi tullantıların idarə edilməsi», «Qanunvericilik aspektində ailə sağlamlığı və dəyərləri» (Ailə, qadın və uşaq məsələləri komitəsi ilə birgə) və «Autizmin tibbi-sosial aspektləri və sosial-müdafiə tədbirləri» (Əmək və sosial siyasət komitəsi ilə birgə) mövzularında 3 dinləmənin keçirilməsi planlaşdırılıb.

Müzakirələrdə Səhiyyə komitəsi sədrinin müavini Rəşad Mahmudov, komitə üzvləri Sədaqət Vəliyeva, Məlahət İbrahimqızı, Kəmaləddin Qafarov, Kamilə Əliyeva, Soltan Məmmədov, Müşfiq Məmmədli və Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış ediblər, gündəlikdəki məsələlərlə bağlı fikirlərini bildiriblər. Millət vəkilləri ötən dövrdə komitənin məhsuldar fəaliyyət göstərdiyini söyləyiblər, qarşıdakı sessiya üçün iş planı ilə bağlı təkliflərini səsləndiriblər. Deputatlar həmçinin səhiyyə sahəsinin bəzi aktual məsələlərinə dair bəzi qeydlərini də diqqətə çatdırıblar.

Komitə üzvləri Milli Məclisin 2023-cü ilin yaz və növbədənkənar sessiyaları dövründə Səhiyyə komitəsində görülən işlər barədə hesabatı qənaətbəxş hesab ediblər, komitənin 2023-cü ilin payız sessiyası üçün iş planını təsdiqləyiblər.

# ICIEC Azərbaycan səhiyyəsində iqtisadi və sosial infrastruktur layihələrini dəstəkləməyə hazırdır

**Səhiyyə Nazirliyində İnvestisiya və İxrac Kreditlərinin Sığortası üzrə İslam Korporasiyasının (ICIEC) baş icraçı direktoru Ussama Kayssinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

Nazirliyin Mətbuat xidmətindən verilən məlumata görə, qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev ötən dövrdə İslam İnkişaf Bankı Qrupuna daxil olan ICIEC ilə Azərbaycan arasında əməkdaşlığın inkişafından məmnunluğunu ifadə edib.




Prezident İlham Əliyev tərəfindən «Dövlət-özəl tərəfdaşlığı haqqında» Azərbaycan Respublikası Qanununun imzalandığını qeyd edən səhiyyə naziri bildirib ki, bu sənəd dövlət-özəl tərəfdaşlığı sahəsində fəaliyyətin həyata keçirilməsinin təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edir.

Teymur Musayev ölkəmizdə səhiyyə sektorunda dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsi üçün geniş imkanların yaradıldığını xüsusilə vurğulayıb. «Azərbaycanda səhiyyə sektoruna əlavə investisiyaların cəlb olunması, nəticə etibarilə, göstərilən xidmətlərin genişləndirilməsi və keyfiyyətinin artırılması məqsədilə dövlət-özəl tərəfdaşlığı sahəsində mühüm işlər görülür», - deyə Azərbaycanın səhiyyə naziri qeyd edib.

Səmimi qəbula görə minnətdarlığını bildirən Ussama Kayssi ölkəmizin bu ilin yanvarından ICIEC korporasiyasına üzv olduğunu vurğulayıb. Onun sözlərinə görə, bu qurum dayanıqlı iqtisadi artıma və yüksək sosial rifaha nail olmaqla Azərbaycanın 2030-cu ilə qədər olan dövr üçün milli sosial-iqtisadi inkişaf prioritetlərini dəstəkləyir. Eyni zamanda, İnvestisiya və İxrac Kreditlərinin Sığortası üzrə İslam Korporasiyası Azərbaycan hökuməti ilə birgə, digər sahələrlə yanaşı, səhiyyədə də iqtisadi və sosial infrastruktur layihələrinin dəstəklənməsi və maliyyə çıxışının yaxşılaşdırılması üçün özəl sektorla sıx əməkdaşlığa hazır olduqlarını qeyd edib.

Görüş zamanı «Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər»dən irəli gələn strateji hədəflər, işğaldan azad edilmiş ərazilərdə reallaşdırılan layihələr və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Səhiyyə sahəsində Pakistan - Azərbaycan əməkdaşlığının inkişafı müzakirə edilib



**Azərbaycan Respublikası Səhiyyə Nazirliyində Pakistanın Rifah Beynəlxalq Universitetinin (RIU) kansleri Həsən Məhəmməd Xanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev iki qardaş ölkə arasında bütün sahələrdə əməkdaşlığın nümunəvi olduğunu vurğulayıb. Səhiyyə siyasəti və ictimai səhiyyə sahəsində əməkdaşlıq məsələlərinə toxunan Teymur Musayev qeyd edib ki, bu istiqamətdə də qarşılıqlı fəaliyyət beynəlxalq müstəvidə - Ümumdünya Səhiyyə Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı səhiyyə nazirlərinin əməkdaşlığı çərçivəsində həyata keçirilir: «Təhsil sahəsində də ikitərəfli əlaqələr dinamik inkişaf edir. Pakistanlı tələbələrin ali tibb təhsili alması üçün Azərbaycanda bütün lazımi şərait yaradılıb», - deyə nazir bildirib.

Teymur Musayev həmçinin Azərbaycan Tibb Universitetinin Pakistanın Rifah Beynəlxalq Universiteti ilə fəal əməkdaşlıq etdiyini söyləyib. Onun sözlərinə görə, bu ilin oktyabrında Bakıda iki universitetin birgə təşkilatçılığı ilə dünyanın müxtəlif ölkələrindən olan mütəxəssisləri vahid platformada birləşdirən Tibb təhsili üzrə beynəlxalq konfrans keçiriləcək.

Sonda Azərbaycanın səhiyyə naziri gələcəkdə əməkdaşlığın daha da uğurla inkişaf etdiriləcəyinə əmin olduğunu deyib.

Öz növbəsində Həsən Məhəmməd Xan vurğulayıb ki, Azərbaycan Pakistan xalqının qəlbində xüsusi yeri olan ölkədir. RIU-nun kansleri ölkələrimiz arasında səhiyyə sahəsində sıx əməkdaşlıq əlaqələrinin mövcud olduğunu bildirib.

Həsən Məhəmməd Xan Tibb təhsili üzrə ilk beynəlxalq konfransın (International Conference on Medical Education - ICME) 2009-cu ildə Pakistanın paytaxtı İslamabadda keçirildiyini qeyd edib: «ICME konfransının əsas məqsədi tibb təhsili üzrə ekspert və alimləri bir araya gətirməklə bu sahədəki son yeniliklərin müzakirəsi, təcrübə mübadiləsinin aparılması və bu sahədə beynəlxalq platforma yaratmaqdır».

Görüşdə səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın inkişaf etdirilməsi və gücləndirilməsinin perspektivləri də müzakirə edilib.

# Bakıda qida standartlarının təkmilləşdirilməsinə dair beynəlxalq tədbir keçirilib

**Bakıda «Avropa və Mərkəzi Asiyada Qida standartlarının təkmilləşdirilməsi və Kodeks Alimentariusun fəaliyyətində iştirakın genişləndirilməsi» mövzusunda ikigünlük beynəlxalq konfrans baş tutub.**

AZƏRTAC xəbər verir ki, 15-ə yaxın ölkəni təmsil edən nümayəndələrin iştirakı ilə keçirilən tədbirə Azərbaycan Respublikasının müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbər şəxsləri, həmçinin BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Ümumdünya Ticarət Təşkilatı, UNICEF, Avropa Komissiyası, Dünya Bankı və digər nüfuzlu qurumların ümumilikdə 60-dan çox nümayəndəsi qatılıb. Tədbirdə qida təhlükəsizliyi standartları, regionda Kodeksdən istifadə və Kodeksdə iştirakla bağlı irəliləyişlər və problemlər müzakirə edilib, «Vahid Sağlamlıq» konsepsiyası çərçivəsində qida təhlükəsizliyinin müvafiq aspektləri nəzərdən keçirilib.

Tədbirin açılışında çıxış edən **Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) sədri Qoşqar Təhməzli** bildirib ki, ölkədə qida təhlükəsizliyinə nəzarət sisteminin təkmilləşdirilməsi, bu sahədə dövlət tənzimlənməsi və nəzarətin həyata keçirilməsi məqsədilə yaradılan Agentlik Milli Kodeks Sisteminin formalaşdırılması üçün FAO-nun Avropa və Mərkəzi Asiya üzrə regional ofisi ilə fəal və səmərəli əməkdaşlıq edir. Agentlik sədri mötəbər tədbirin AQTA-nın 5, Kodeks Alimentarius 60 illik yubileyinə təsadüf etməsini əlamətdar hadisə adlandırıb, vurğulayıb ki, Avropa və Mərkəzi Asiya regionunun Kodeks və qida təhlükəsizliyi sahəsində fəal tərəfdaşları bu əlamətdar ili qeyd etmək məqsədilə ikigünlük yüksək səviyyəli konfransı birlikdə keçirirlər. Q.Təhməzli AQTA-nın fəaliyyəti dövründə ölkəmizdə qida təhlükəsizliyi sahəsində aparılan islahatlardan, vahid səlahiyyətli qurum idarəetməsinə keçiddən, «tarladan süfrəyədək» prinsipi əsasında qida zəncirinin bütün mərhələlərində risk əsaslı nəzarətin həyata keçirilməsindən, qabaqcıl beynəlxalq təcrübəyə və tələblərə uyğun qida təhlükəsizliyi sisteminin qurulması üçün təsdiqlənmiş və uğurla icra olunan «Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin olunmasına dair 2019-2025-ci illər üçün Dövlət Proqramı»ndan danışıb. AQTA sədri qeyd edib ki, agentlik tərəfindən aparılan işlər qida təhlükəsizliyinin təmin olunması ilə yanaşı, ölkənin ixrac potensialına da töhfə verir. Belə ki, həyata keçirilən tədbirlər sayəsində Avropa İttifaqına yun, dəri və akvakulturada yetişdirilən kürü məhsullarının ixracına icazələr alınıb. Q.Təhməzlinin sözlərinə görə, Kodeks Alimentarius Komissiyası ilə əməkdaşlıq ölkəmizin qida təhlükəsizliyi ilə bağlı qanunvericiliyini ən qabaqcıl beynəlxalq təcrübələrə uyğunlaşdırmağa kömək edir, həm daxili istehlak, həm də ixrac üçün olan qida məhsullarının təhlükəsizliyinin təmin olunmasına şərait yaradır. Bu əməkdaşlıq «Made in Azerbaijan» brendi altında dünya bazarlarına çıxarılan qida məhsullarının keyfiyyətinə inamı möhkəmləndirəcək.

Agentliyinin sədri deyib ki, hazırda qida və yem məhsullarının təhlükəsizliyi sahəsində qanunvericiliyin Kodeks Alimentarius Komissiyası və digər təşkilatlar tərəfindən qəbul olunmuş beynəlxalq standartlara, norma və qaydalara uyğunlaşdırılması və yeni normaların hazırlanması işləri davam etdirilir.

Onun sözlərinə görə, son dövrlərdə dünyada, o cümlədən Azərbaycanda antimikrob rezistentliyi xüsusi narahatlıq yaradan aktual problemdir: «Antibiotiklərə davamlı patogenlərin yaranması və yayılması antimikrob müqavimətə gətirib çıxarır. Bunun yaranmasına əsas səbəb kimi isə antibiotiklərin, baytarlıq preparatlarının həddən artıq, kortəbii şəkildə istifadəsi, çirkab və suvarma suları vasitəsilə antibiotiklərin və antibiotikə davamlı bakteriyaların ətraf mühitə buraxılması nəticəsində təmiz içməli suya əlçatanlığın olmamasını göstərmək olar. Bu səbəbdən də insan, heyvan və ətraf mühitin sağlamlığının bir-birindən asılı olduğu qəbul edilməli, bu sahələrdəki problemlər ayrı-ayrılıqda deyil, birgə yanaşma ortaya qoyulmaqla həll olunmalıdır».

*(Davamı 7-ci səhifədə)*

# İcbari tibbi sığortanın Yenilənmiş Xidmətlər Zərfinin təqdimatı olub

**İcbari tibbi sığorta üzrə Yenilənmiş Xidmətlər Zərfinin təqdimat mərasimi keçirilib.**



İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən təşkil olunan tədbirdə Azərbaycan Respublikasının Milli Məclisinin və Nazirlər Kabinetinin, Səhiyyə, Maliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB), digər aidiyyətli dövlət qurumlarının, tibb və təhsil müəssisələrinin, vətəndaş cəmiyyətinin, beynəlxalq təşkilatların və media qurumlarının nümayəndələri iştirak ediblər.

AZƏRTAC-ın bildirdiyinə görə, agentliyin **İdarə Heyətinin sədri Zaur Əliyev** xidmətlər zərfinin təkmilləşdirilməsindən, aparılan dəyişikliyin əhali və həkimlər üçün faydalarından danışıb. Bildirib ki, universal tibbi təminata nail olmaq üçün bir çox araşdırmalar aparılıb, beynəlxalq təcrübə öyrənilib: «Universal tibbi təminatın əsas 3 komponenti əhalinin tibbi xidmətlərə əlçatanlığı, tibbi xidmətlərin keyfiyyətinin və əhatə dairəsinin artırılması və maliyyə dayanıqlığının təminatıdır. Azərbaycanda artıq 10 milyon əhali sığortalanıb. Xidmətlər Zərfi çərçivəsində 100 milyondan çox tibbi xidmət göstərilib. İcbari tibbi sığortaya başlayarkən 20 özəl tibb müəssisəsi ilə müqavilə bağlanmışdısa, bu gün onların sayı 100-dən artıqdır. Ölkəmizdə təminata alınmış tibbi xidmətlərin artırılması ilə universal tibbi təminata doğru növbəti addım atılıb. Pilot layihə dövründə icbari tibbi sığorta çərçivəsində qarşılanan tibbi xidmətlərin sayı 3 dəfə artırılaraq 3315-ə çatdırılıb. Eyni zamanda, tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi yönündə tədbirlər görülünb. Agentlik tərəfindən 2020-2023-cü illərdə 100 milyon manata yaxın məbləğdə yeni cihaz və avadanlıq alınıb və tibb müəssisələrinə təhvil verilib».

Ölkə rəhbərliyinin əhalinin sağlamlığına qayğısını vurğulayan Z.Əliyev deyib ki, bu gün Azərbaycan Prezidenti İlham Əliyevin möhkəm siyasi iradəsi və Birinci vitse-prezidentin böyük dəstəyi ilə səhiyyə sahəsində çox böyük işlər görülməkdədir: «Səhiyyəmizin maddi-texniki bazasının gücləndirilməsi, işğaldan azad olunmuş ərazilərdə yeni tibb müəssisələrinin yaradılması, icbari tibbi sığortanın təminat verdiyi tibbi xidmətlərin artırılması səhiyyə islahatlarının tərkib hissəsidir. Bütün bu işlər Azərbaycan vətəndaşının rifahına, sağlamlığının qorunmasına xidmət edir».




Agentliyin İdarə Heyətinin sədri həmçinin qeyd edib ki, 2019-cu ildən bu yana həkimlərin maaşında kifayət qədər artım olub, müxtəlif ixtisaslı həkimlərin orta aylıq əməkhaqqı 400 manatdan 2600 manatadək yüksəlib.

Z.Əliyev xidmətlər zərfinin təkmilləşdirilməsində agentliyə dəstək göstərən Səhiyyə Nazirliyinə və Milli Məclisə öz təşəkkürünü bildirib.

Tədbirdə çıxış edən **səhiyyə naziri Teymur Musayev** vurğulayıb ki, ölkədə mürəkkəb bir dövrdə icbari tibbi sığortanın tətbiqi Prezident İlham Əliyev tərəfindən vətəndaşlarımızın sağlamlığına ən yüksək səviyyədə verilən dəyərin və diqqətin təzahürüdür. Onun sözlərinə görə, vahid səhiyyə prinsipi əsasında özəl sektorda göstərilən xidmətlər dövlət-özəl əməkdaşlığı çərçivəsində qarşılanmağa başlanıb və hazırda dövlət və özəl sektor arasında inteqrativ əməkdaşlıq uğurlu formatda davam edir. Səhiyyə naziri qeyd edib ki, insan kapitalının inkişafı, səhiyyənin rəqəmsallaşması və maliyyələşməsi sahələrinə icbari tibbi sığortanın verdiyi töhfə olduqca vacibdir: «Pandemiyanın ilk günlərində icbari sığortanın tətbiq etdiyi rəqəmsal tətbiqlər və proqramlar pandemiyanın törədə biləcəyi fəsadların qarşısını aldı, eyni zamanda, istər dövlət, istərsə də özəl sektorlar arasındakı əməkdaşlığı yeni mərhələyə qaldırdı».

Teymur Musayev bildirib ki, gələcəkdə əhalinin tibbi xidmətlərə əlçatanlığının və vətəndaş məmnunluğunun artırılması məqsədilə icbari tibbi sığorta digər sığorta modelləri ilə zənginləşdirilə bilər: «Tibbi sığorta sisteminin təkmilləşdirilməsi üzrə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Azərbaycan Sığortaçılar Assosiasiyası arasında fəal əməkdaşlıq aparılır və bu sahədə ilkin ümidverici nəticələr əldə olunub» -, deyə Teymur Musayev fikrini tamamlayıb.

**Milli Məclisin Səhiyyə Komitəsinin sədri Əhliman Əmiraslanov** icbari tibbi sığortanın tətbiqinin səhiyyə tarixində önəmli islahat olduğunu vurğulayıb: «Sevindirici haldır ki, icbari tibbi sığorta bütün ölkədə tətbiq olunur və artıq vətəndaşlarımız tibbi xidmətlərdən rahat şəkildə istifadə edirlər. Əlbəttə ki, görüləsi işlər çoxdur. Hazırda xidmətlər zərfinin əhatə dairəsinin genişlənməsi qürurvericidir. Ölkəmizin səhiyyə sistemində orqan transplantasiyası sahəsində böyük işlər aparılmalıdır. Bu gün orqan transplantasiyasının icbari tibbi sığortanın təminatına daxil edilməsi bu istiqamətdə vacib bir addımdır və görülən tədbirlərə əsas töhfədir». Milli Məclisin komitə sədri orqan transplantasiyasının həyata keçirilməsi üçün klinikalarımızın imkanlarının geniş olmadığını, orqan və toxuma transplantasiyasında dünya ölkələri arasında geridə qaldığımızı deyib: «Məni narahat edən məqamlardan biri də orqan transplantasiyası ilə bağlı daxil edilən xidmətlərin limitli olmasıdır. Bu, başadüşüləndir. Maliyyə və klinikaların imkanları ilə bağlı çətinliklər var. Ümid edirik ki, gələcəkdə bu əməliyyatları həyata keçirən klinikaların sayı artırılacaq, klinikaların əməliyyatları həyata keçirmək üçün imkanları genişləndiriləcək».

Ə.Əmiraslanov özəl tibb müəssisələrinin icbari tibbi sığorta çərçivəsində xidmət göstərməsini müsbət qarşıladığını deyib, tibb müəssisələrinin sayının getdikcə artdığını da diqqətə çatdırıb.

**TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov** bildirib ki, xidmətlər zərfinin təkmilləşməsi sağlam cəmiyyətin formalaşmasına xidmət edir. Siyahıya yeni xidmətlərin - əvvəllər bu zərfə daxil olmayan müayinə, müalicə və əməliyyatların əlavə edilməsi insanların tibbi xidmətlərə əlçatanlığının daha geniş spektrdə olmasına imkan yaradır: «Bütün tibb müəssisələrimizdə laparoskopik əməliyyatları icra edə bilmək üçün avadanlıqlar alınır, avtopark yenilənir, tibbi sərfiyyatın fasiləsiz olması üçün intensiv tədbirlər görülür, xəstəxana idarəetmə sistemi təkmilləşdirilir. Xidmətlər zərfinə daxil olan tibbi xidmətlərin 2550-dən 3315-ə qədər artırılması xəstəxanalara axını daha çox artıracaq». O bildirib ki, tibb müəssisələrinin əməkdaşlarına xidmətlər zərfinə edilmiş dəyişikliklərin tətbiqi ilə əlaqədar olaraq yeni qaydaların izah olunması və öyrədilməsi məqsədilə müntəzəm olaraq təlimlərin keçirilməsi planlaşdırılıb.

Daha sonra İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Tibbi iddialar departamentinin Dövlət tibb müəssisələrinin ekspertizası şöbəsinin müdiri Nicat Şirinov, agentliyin Strateji inkişaf və iqtisadi təhlil departamentinin Səhiyyə iqtisadiyyatı şöbəsinin baş məsləhətçisi Şamxal Cəmilzadə və İnzibati idarəetmə departamentinin Təchizat və satınalma şöbəsinin müdiri Anar Rəhimov təqdimatlarla çıxış ediblər. Onlar iştirakçıları xidmətlər zərfinə yeni əlavə edilən tibbi xidmətlər, tarif dəyişikliyi, tibb müəssisələrinin maddi texniki-bazasının gücləndirilməsi mövzularında məlumatlandırıblar.

Sonda mətbuat konfransı keçirilib.

# Tibbi xidmətlərin keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş yeni texnologiyalar tətbiq ediləcək

## *Səhiyyə nazirinin müşaviri Rüfət Hacıəlibəyov Azərbaycanda səhiyyə sahəsinin rəqəmsallaşması ilə bağlı gələcək planlar haqqında müsahibə verib*

**— Rüfət müəllim, Azərbaycan Səhiyyə Nazirliyi rəqəmsallaşma və qabaqcıl texnologiyaların tətbiqi ilə bağlı hansı tədbirlər həyata keçirməyi planlaşdırır?**

— İlk növbədə, onu vurğulamaq istərdim ki, səhiyyənin rəqəmsallaşdırılması dövlətin prioritet fəaliyyət istiqamətlərindən biridir və Prezident İlham Əliyev tərəfindən vətəndaşların həyat keyfiyyətinin yüksəlməsinə, eləcə də ölkənin sosial-iqtisadi vəziyyətinin yaxşılaşmasına təsir edən amil kimi qeyd olunub. Bu məqsədlə dövlət başçısının müvafiq Fərmanına uyğun olaraq «Səhiyyə Transformasiya Mərkəzi» işçi qrupu yaradılıb. Eyni zamanda, «Rəqəmsal səhiyyəyə baxış» və «2024-2028-ci illər üçün rəqəmsal səhiyyə üzrə Milli Strategiya» sənədləri hazırlanıb. Səhiyyənin rəqəmsallaşdırılması üzrə həyata keçirilən bir sıra təşəbbüslərə baxmayaraq, bu sahədə xəstəliklərin diaqnostikası və keyfiyyətli tibbi xidmətlərin göstərilməsi informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqinə və spektrinin artırılmasına tələbatı daha da gücləndirir.

Səhiyyənin rəqəmsallaşdırılması strategiyası fundamental texnoloji yanaşmadır, o, qərarların qəbulu prosesində məlumatların vahid platforma üzərindən mərkəzləşdirilmiş informasiya məkanına daxil edilməsi nəticəsində, tibb işçiləri tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin artırılmasını təmin edir. Bu platformanın əsasını vətəndaşın elektron profili təşkil edir. Elektron profildə səhiyyə işçiləri üçün real vaxt rejimində əlçatan olan, insanların bütün həyat dövrünü əhatə edən məlumatlar cəmləşdirilir. Bu, vətəndaşların sağlamlığının cari vəziyyəti haqqında informasiyaların toplanması, sonrakı təhlili, o cümlədən retrospektiv göstəricilər üçün əsas vasitədir. Bu da xəstəliklərin tarixinin daha mükəmməl təhlili, onların dəqiq diaqnozu, eləcə də tətbiq olunan müalicə üsullarının təkmilləşdirilməsi üçün mühüm rol oynayacaq. Bu məlumatlar həm də ölkə üzrə vətəndaşların çoxşaxəli sağlamlıq təhlili, qərarların dəstəklənməsi və real vaxt rejimində sahənin strateji planlaşdırılması üçün əsas olacaq.

**— Rəqəmsallaşma prosesi səhiyyə sektorunda nə kimi dəyişikliklərlə nəticələnəcək? Onun xəstələrə, tibb işçilərinə və bütün səhiyyə ekosisteminə təklif etdiyi əsas üstünlüklər hansılardır?**

— İlk növbədə, bilmək lazımdır ki, diqqətimiz vətəndaşların sağlamlığının qorunmasına yönəlib və bütün səhiyyə ekosistemi, o cümlədən onun iştirakçıları bu çağırışa cavab verməlidir. Səhiyyənin rəqəmsallaşdırılması sistemdə bürokratiyanı və subyektivizmi aradan qaldırmaqla, coğrafiyasından asılı olmayaraq vətəndaşlara göstərilən tibbi xidmətlərin əlçatanlığının və keyfiyyətinin artırılmasını, habelə elektron xidmətlər vasitəsilə onların fərdiləşdirilməsini təmin edəcək. Rəqəmsallaşma səhiyyə subyektləri arasında tibbi məlumatların davamlı və etibarlı mübadiləsini təmin etməlidir ki, bu da əldə olunan informasiya əsasında səhiyyə sisteminin və müalicə üsullarının idarə edilməsində yeni yanaşma formalaşdıracaq.

Dövlət səhiyyə sektorunda strateji planlaşdırma, onun həyata keçirilməsi və monitorinqi, böhran vəziyyətlərinə (məsələn, pandemiyalara) hazırlıq üçün genişləndirilmiş imkanlar, habelə səhiyyənin şəffaflığının artırılması hesabına əlavə iqtisadi impuls verəcək. Tibbi sığorta sahəsi həm də vətəndaşların sağlamlığında obyektiv yanaşmalar tətbiq etməklə səhiyyə sisteminin səmərəliliyini və maliyyə dayanıqlığını artıra biləcək. Bu da tibbi sığortanın yeni iqtisadi modellərinin işlənib hazırlanmasına və tətbiqinə imkan verəcək.




Səhiyyənin rəqəmsallaşdırılmasının faydaları siyahısını sadalamaqda davam edə bilərik, lakin onların hamısını vahid məqsəd birləşdirir - vətəndaşların sağlamlığının qayğısına qalmaq!

**— Rəqəmsal səhiyyənin hansı xarici modelini ölkəmiz üçün etalon qəbul etmək olar? Səhiyyə sahəsində beynəlxalq təcrübəni Azərbaycanda tətbiq etməyi planlaşdırırsınızmı?**

— Biz bir sıra inkişaf etmiş ölkələrin rəqəmsal səhiyyə modellərinin öyrənilməsi və araşdırılması istiqamətində geniş monitorinqlər aparmışıq. Bir nəticə olaraq retransformasiya olmadan tətbiq ediləcək unikal model mövcud deyil. Bu, səhiyyənin spesifikliyi, qanunvericilik və idarəedici xüsusiyyətlər, tibb işçilərinin hazırlıq səviyyəsi, eləcə də rəqəmsallaşma və məlumatların qorunmasında milli tənzimləyicilərin tələbləri nəzərə alınmaqla vahid rəqəmsal mənzərəyə inteqrasiya edilməli olan rəqəmsallaşmanın mövcud vəziyyətidir. Buna görə də, beynəlxalq təcrübə, o cümlədən rəqəmsallaşma sahəsində yol verilmiş səhvlər nəzərə alınaraq, «2024-2028-ci illər üçün rəqəmsal səhiyyə Milli Strategiyası"nda rəqəmsal dəyişikliklərə mövcud hazırlıq dərəcəsi və sonrakı illərdə onun əhəmiyyətli artımı ilə əlaqəli rəqəmsal səhiyyə modelinin tətbiqi qərara alınıb. Səhiyyə sektorunun sistemli rəqəmsallaşması bu sahədə problemlərin həllinə və faydaların maksimuma çatdırılması üçün texnoloji həllərin tətbiqinə, eyni zamanda, bütün maraqlı tərəflərin tədricən cəlb edilməsinə yönəlmiş strateji bir yanaşmadır.

**— Rəqəmsal tibbi xidmətlərin ölkə miqyasında tətbiqini sürətləndirmək üçün trigger (tətikçi) olmağa nə kömək edəcək?**

— İnsan amili hər zaman əsas trigger rolunu oynayır. İnnovativ yanaşmalar səhiyyə proseslərinin rəqəmsallaşdırılmasının faydalarının aşkarlanmasından və bütövlükdə sektorda sistemli tətbiqindən asılıdır. Beynəlxalq təcrübəyə görə, bu cür təşəbbüslər irimiqyaslı ölkə çağırışlarını nəzərə alaraq dövlət və hökumət başçılarının şəxsi iradəsindən irəli gəlir.

Növbəti vacib məsələ tibb işçilərinin rəqəmsal savadlılığıdır ki, bunun üçün strategiyada diplomdan əvvəl və sonrakı təhsil üzrə təkmilləşdirmə kursları üçün ssenarilər nəzərə alınıb. Vahid qarşılıqlı rəqəmsal tibbi fəaliyyət standartlarının istifadəsi, rəqəmsal səhiyyədə tətbiq olunan qaydaların hazırlanması, səhiyyə seqmentinin iştirakçıları və üçüncü tərəf dövlət qurumları ilə vəhdət təşkil edən sinerji səhiyyə sektorunun rəqəmsallaşdırılması prosesini əhəmiyyətli dərəcədə sürətləndirməlidir.

Rəqəmsallaşma prosesində səhiyyə xərclərini optimallaşdırmağa və sahədəki subyektlərdə şəffaflığa nail olmağa imkan verən iqtisadi effekt də mühüm amil hesab olunur. Dövlət-özəl tərəfdaşlıq modeli vasitəsilə özəl texnoloji sektorunun cəlb edilməsi, onun mütəxəssislərinin yüksək dərəcədə peşəkarlığı, müvafiq texnoloji təcrübənin mövcudluğu və çeviklik də qarşıya qoyulan vəzifələrin icrasını sürətləndirə bilər.

Ümumiyyətlə, kompleksli formada dövlət dəstəyi, rəqəmsal səhiyyə layihəsinin həyata keçirilməsi üçün düşünülmüş planın mövcudluğunu və bütün tərəflərin daxil olmasını təmin etmək rəqəmsal səhiyyə xidmətlərinin ölkə ərazisində həyata keçirilməsinin sürətləndirməsinə güclü təkan ola bilər.

**— İnkişaf etmiş ölkələrin səhiyyəsində teletibb fəal şəkildə tətbiq olunur. Bu texnologiyadan istifadə ilə bağlı planlarınız barədə bilmək istərdik. Bu texnologiyalar kənd yerlərində və ya kifayət qədər infrastruktura malik olmayan regionlarda səhiyyə xidmətlərinin göstərilməsi ilə bağlı problemlərin həllinə necə kömək edə bilər?**

— Tibb məntəqələrinin böyük şəhər, habelə rayon mərkəzlərində yerləşməsi tibbi xidmətlər almaq üçün bəzi hallarda kifayət qədər infrastruktura malik olmayan ucqar regionlardan olan vətəndaşları uzun məsafə qət etməyə və əlavə maliyyə sərfiyyatına məcbur edir. Bu da klinikalarda sıxlığa, uzun növbələrə və yoluxucu xəstəliklərin nəzarətsiz yayılmasına səbəb olur. Həmçinin regionlarda əhalinin bir hissəsi yuxarıda göstərilən çətinliklərlə bağlı tibbi xidmətə müraciət etmir. Bu da sonradan xəstəlik və əlilliyin ağırlaşması ilə nəticələnir, eyni zamanda, sığortaçıların və dövlətin büdcəsinə əlavə yük yaradır.

Xəstələrin həkimə müraciət etdiyi diaqnozlar və ya testlərin izahı ilə bağlı sualların əhəmiyyətli bir hissəsi teletibb xidmətlərindən istifadə etməklə vizual həll edilə bilər. Teletibbin tətbiqi vətəndaşların həkimə baş çəkmək üçün vaxtına və xərclərinə qənaət etməsinə, tibb müəssisələrinə müraciət yükünün azaldılmasına, ucqar rayonlarda lazımi ixtisas üzrə həkimlərin əlçatanlığına, stasionar müalicəyə cəlb edilmədən xroniki xəstəliklərin, o cümlədən yaşlıların və əlillərin daimi nəzarətinin təmin edilməsinə imkan verəcək. Xəstəliklərin vaxtında diaqnostikası və onların müalicəsi tibbi patologiyaların və əlilliklərin inkişaf ehtimalının qarşısını alacaq. Bu da dövlət tərəfindən əhəmiyyətli maliyyə qənaətinə, habelə vətəndaşların həyat keyfiyyətinin yüksəlməsinə səbəb olacaq.

Təşəbbüs çərçivəsində Səhiyyə Nazirliyi tərəfindən teletibbin səhiyyə sektorunda tətbiqi üzrə pilot layihə həyata keçirilib, növbəti addımların müəyyən edilməsi üçün onun nəticələri hərtərəfli təhlil ediləcək.

**— Elektron reseptlərdən (dərman vasitələrinə reseptlərin elektron formada yazılmasından) getdikcə daha çox istifadə edilir. Elektron reseptin üstünlükləri nələrdir və dərman idarəçiliyini necə təkmilləşdirə bilər?**

— E-Resept sistemi Azərbaycanın tibb müəssisələrində vətəndaşlara verilən reseptlərin elektron qeydiyyatını nəzərdə tutur. Bu, reseptlərin oxunaqlığını və ya səhv şərhini aradan qaldıracaq, əvvəllər təyin edilmiş dərmanların tarixini görməyə, dərmanlar arasında arzuolunmaz uyğunsuzluğun qarşısını almağa, dəqiq dozaları göstərməyə, habelə Xəstəliklərin Beynəlxalq Təsnifatına əsaslanan diaqnozlara uyğunlaşmağa imkan verəcək. Bu da, öz növbəsində, buraxılmış diaqnozları beynəlxalq təsnifata və vətəndaşların sağlamlığının sonrakı təhlilinə uyğunlaşdırmağa imkan yaradacaq.

*(Davamı səhifə 7-də)*



# ATU-da Təcili tibb kafedrası yaradılıb

**Azərbaycan Tibb Universitetində (ATU) yeni yaradılan Təcili tibb kafedrasının ilk mühazirəsi keçirilib. Kafedranın müdiri, dosent Nadir Zeynalovun təqdimatında ilk mühazirəni I Müalicə-profilaktika fakültəsinin IV kurs tələbələri dinləyiblər.**

N.Zeynalov AZƏRTAC-a bildirib ki, 2021-ci ilin dekabrında Böyük Elmi Şuranın qərarı ilə Təcili tibb kafedrasının təşkilinə hazırlıq işlərinə başlanılıb. Onun sözlərinə görə, həmin kafedranın yaranmasında Ümumdünya Səhiyyə Təşkilatının ölkəmizdəki nümayəndəliyinin böyük xidməti olub. Belə ki, həmin nümayəndəliyin Azərbaycanda həyata keçirdiyi layihələrin istiqamətlərindən biri də təcili tibbi yardım sisteminin təkmilləşdirilməsi idi: «Həm layihə çərçivəsində, həm də kafedranın yaradılmasına hazırlıq mərhələsində kafedrada çalışacaq müəllimlər seçildi və Türkiyənin aparıcı universitetində il yarım ərzində hər dəfə 1 ay olmaqla, üç dəfə nəzəri və praktik təlim keçdilər. Bu sahədə böyük təcrübəsi olan Türkiyənin aparıcı mütəxəssisləri kafedranın yaradılmasına konsultativ yardım göstərdilər. Eyni zamanda, türkiyəli professorlar Azərbaycana gələrək öz təcrübələrini Təcili tibb kafedrasında işləyəcək müəllimlərlə bölüşdülər».

Təcili tibb sahəsində yeni strukturların yaradılması və mütəxəssislərin hazırlanmasının artıq zərurətə çevrildiyini söyləyən kafedra müdiri proqramların dünyanın qabaqcıl ali təhsil müəssisələrinin tədris proqramlarına uyğunlaşdırılması baxımından Təcili tibb kafedrasının təşkilinin məqsədəuyğun hesab edildiyini vurğulayıb.

# Tibbi xidmətlərin keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş yeni texnologiyalar tətbiq ediləcək

*(Əvvəli səhifə 6-da)*

Dərman vasitələrinin yenilənmiş reyestri ölkə miqyasında makroanaliz üçün əsas olacaq. Belə ki, dərman vasitələrinin mövcudluğu və onlara tələbat, dərman preparatlarını kimə və hansı diaqnoz üçün təyin etmiş həkimlər barədə dolğun məlumat olacaq. Bu həm də dərman satışı sahəsində aparılan əməliyyatlara nəzarətin gücləndirilməsi, o cümlədən saxta məhsulların yayılmasının qarşısının alınması nəticəsində əlavə iqtisadi effekt yaradacaq. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarına əsasən, Səhiyyə Nazirliyinə bu ilin sonunadək elektron resept sisteminin tətbiqi tapşırılıb.

**— Rəqəmsal vətəndaş profili ənənəvi kağız üzərində aparılan qeydləri əvəz edir. Bu texnologiyanın əsas üstünlükləri hansılardır və vətəndaşların sağlamlığını qorumaq qayğısını necə yaxşılaşdıracaq?**

— Vətəndaşın rəqəmsal profili hamiləliyin qeydə alındığı andan ölüm anına qədər insanın sağlamlıq məlumatlarının toplandığı yerdir. Bu, vətəndaşın bütün həyat dövrü ərzində sağlamlığının elektron tarixçəsini saxlamağa, onun tibb müəssisələrinə müraciətlərinin tarixçəsini, o cümlədən müayinələrin nəticələri və şəkillərini, peyvəndləri, reseptləri, epikrizləri və bütün sağlamlıq xüsusiyyətlərini saxlamağa imkan verəcək. Bu isə, öz növbəsində, toplanmış məlumatları sistemləşdirməyə və təhlil etməyə imkan yaradacaq. Əldə edilmiş məlumatlar əsasında həkimlər vətəndaşın cari sağlamlığı haqqında tam məlumat ala biləcəklər ki, bu da xəstəliklərə daha dəqiq diaqnoz qoyulmasına və müalicəni təyin etməyə, tibbi xidmətlərin keyfiyyətini yaxşılaşdırmağa, habelə həm vətəndaşlar, həm də dövlət üçün gündəlik və maliyyə xərclərini əhəmiyyətli dərəcədə azaltmağa imkan verəcək. Həmçinin bu məlumatlar əhalinin sağlamlıq vəziyyətini ölkə miqyasında düzgün proqnozlaşdırmağa və gələcək səhiyyə strategiyasının formalaşmasında düzəlişlər etməyə imkan yaradacaq.

Vətəndaşların gözləntiləri də nəzərə alınmalıdır. Vətəndaşlar texnoloji cəhətdən daha bilikli olduqca və digər sahələrdə rəqəmsal xidmətlərə öyrəndikcə, səhiyyə sektorunda da eyni rahatlığı və əlçatanlığı tələb edəcəklər. Pasiyentlərin gözləntilərinin qarşılanması tibb işçilərinin rəqəmsal səhiyyəni qəbul etməsi üçün təkanverici qüvvə ola bilər.

# Bakıda qida standartlarının təkmilləşdirilməsinə dair beynəlxalq tədbir keçirilib

*(Əvvəli səhifə 4-də)*

Müasir dünyada qida təhlükəsizliyinin təmin edilməsində «Vahid Sağlamlıq» konsepsiyası yanaşmasının aktual məsələyə çevrildiyini vurğulayan Qoşqar Təhməzli həmçinin məktəblərdə və məktəbəqədər təhsil müəssisələrində xüsusi qida təhlükəsizliyi sisteminin tətbiqinə başlanılmasından, həmin müəssisələrdə keyfiyyətə nəzarət menecerlərinə xüsusi təlimlər keçiriləcəyindən, qida məhsullarının daşınması və çatdırılması zamanı standartlara uyğunlaşdırılmanın vacibliyindən danışıb.

Tədbirdə çıxış edən **Azərbaycanın səhiyyə naziri Teymur Musayev** əhalinin sağlamlığının və ölkə səhiyyəsinin mümkün təhdidlərdən qorunmasında qida təhlükəsizliyinin mühüm rol oynadığını vurğulayıb. Qeyd edib ki, qidaların keyfiyyətli və təhlükəsiz olması qida ilə əlaqəli xəstəlik hallarının yayılmasının qarşısını alır: «Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli «Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər» Sərəncamına əsasən, vətəndaşların sağlam həyat tərzinin təmin edilməsi əsas məqsədlərdəndir. Həmçinin Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında uşaqların sağlam həyat tərzi və sağlam qidalanmanın təşviqi yuxarıda qeyd olunan məqsədə çatmaq üçün əsas fəaliyyət istiqamətlərindən biri kimi müəyyən edilib».

Səhiyyə naziri bildirib ki, sağlamlığın qorunmasına qida təhlükəsizliyinin təsiri baxımından, həssas əhali qrupları arasında qida təhlükəsizliyi barədə məlumatlılıq səviyyəsinin artırılması üçün maarifləndirmə və təşviqat tədbirlərinin keçirilməsi zəruridir: «Bu baxımdan Səhiyyə Nazirliyi və Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi arasında fəal əməkdaşlıq aparılır. Xüsusilə də məktəblilər arasında düzgün qidalanmanın təşviqinə dair tədbirlər həyata keçirilir».

Teymur Musayev sağlam və təhlükəsiz qidalar istehsal edən bizneslər üçün qanunvericilikdə dəstəkləyici mühitin formalaşdırılmasının önəmini vurğulayıb, bu sahədə innovativ texnologiyaların tətbiqinin, stimullaşdırıcı mexanizmlərin yaradılmasının, müxtəlif tədqiqatların müəssisələrin fəaliyyəti üçün əlavə imkanlar yaratdığını qeyd edib.

Səhiyyə naziri AQTA-nın tabeliyində yaradılmış Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun fəaliyyətinə də toxunub, onun maddi-texniki bazasına, kadr və elmi potensialına görə nəinki regionda, hətta beynəlxalq miqyasda qabaqcıl və etibarlı müəssisə kimi qəbul olunduğunu deyib. İnstitutun tabeliyində qida təhlükəsizliyi, heyvan sağlamlığı, bitki sağlamlığının qorunması üzrə ən son avadanlıqlarla təchiz edilmiş laboratoriyaların gənc kadrların hazırlanmasında mühüm rol oynadığını qeyd edib.

Teymur Musayev bildirib ki, Kodeks Komissiyasının əsas fəaliyyəti istehlakçıların sağlamlığının qorunması, beynəlxalq ərzaq ticarətində ədalətli təcrübələrin təmin edilməsindən ibarətdir. Bu baxımdan tədbirin əhəmiyyətini yüksək qiymətləndirən nazir deyib: «Kodeks qlobal səviyyədə qida keyfiyyətinin idarə olunmasında mühüm təsirə malikdir. Əminəm ki, aparılacaq panel müzakirələr Milli Kodeks Sisteminin yaradılması işinə əməli töhfələr verəcəkdir».

Daha sonra çıxış edən **kənd təsərrüfatı naziri Məcnun Məmmədov** bildirib ki, dünyada qlobal təhlükələr və risklər - su çatışmazlığı, quraqlıq, istiləşmə, səhralaşma, sənayeləşmə, beynəlxalq konfliktlər, pandemiyalar, epidemiyalar dövründə ərzaq və qida təhlükəsizliyi bəşəriyyət üçün prioritet sahələrdir, dövlətin təhlükəsizliyinin təməl şərtlərindəndir. Müasir dünyada beynəlxalq təşkilatların hesabatlarında qeyd edilən ərzaq və qida çatışmazlığı daha diqqətli və həssas yanaşma tələb edir. Nazir bildirib ki, Azərbaycan Respublikası hər zaman olduğu kimi, müasir çağırışlara uyğun beynəlxalq standartlara cavab verən qida təhlükəsizliyi sistemi yaradıb. Ərzaq və qida təhlükəsizliyi sahəsində beynəlxalq təcrübələr nəzərə alınaraq islahatlar aparılır.

**FAO-nun Azərbaycandakı nümayəndəsi Muhammad Nasar Hayat** vurğulayıb ki, qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən qurumlar istehlakçıları təhlükəsiz qida məhsulları ilə təmin etmək üçün fəal şəkildə çalışır. Qida təhlükəsizliyinin idarə edilməsində davamlı olaraq yeni imkanlar və çağırışlar meydana çıxır və elm əsaslı qida standartları tətbiq edilir.

Kodeks Alimentarius Komissiyası Katibliyində qida standartları üzrə **baş katib Hilde Kruse** bildirib ki, FAOÜST Kodeks Etimad Fondu layihələri ölkələrə Kodeks işində iştirak etmək üçün möhkəm və davamlı milli potensialın yaradılmasına dəstək verir. Azərbaycan hökuməti də daxil olmaqla, regionun bir çox ölkələri bu dəstəkdən faydalanır.

Beynəlxalq tədbirdə **ÜST-nin Azərbaycandakı nümayəndəsi Hande Harmancı** deyib ki, təhlükəli qida dünyada milyonlarla insanın sağlamlığına təsir edir. Buna görə qida məhsullarının təhlükəsizliyi ilə bağlı məsələdə güzəşt olmamalıdır. ÜST rəsmisi bildirib ki, innovasiyalara uyğunlaşma təmin edilməli, innovasiya və təhlükəsizlik arasındakı əlaqə düzgün qurulmalı, vahid səhiyyə sağlamlıq konsepsiyası ərsəyə gətirilməlidir: «İşimiz sadəcə qanunvericiliyin qəbulu ilə kifayətlənmir. Qida təhlükəsizliyi sahəsində davamlı və dayanıqlı tədbirlər həyata keçirməliyik».

Tədbirdə AQTA-nın 5 illik fəaliyyətinə həsr olunan «5 dəqiqədə 5 il» adlı videoçarx nümayiş etdirilib.

Daha sonra tədbir «Qida təhlükəsizliyi prioritetləri haqqında regiondakı yeniliklər», «Təhlükəsiz qida üçün standartların rolu və istifadəsi» və «Qida təhlükəsizliyində «Vahid Sağlamlıq» yanaşmasının gücləndirilməsi» mövzularında sessiyalarla davam edib.

İkigünlük konfransda milli və beynəlxalq səviyyədə insan sağlamlığının qorunması, elm əsaslı qida standartlarının faydaları haqqında məlumatlılığın artırılması, «Vahid Sağlamlıq Konsepsiyası» çərçivəsində qida təhlükəsizliyi, onun bitki və heyvan sağlamlığı ilə qarşılıqlı əlaqəsi kimi məsələlər müzakirə olunub. Eyni zamanda, tədbirdə Kodeksin rolu ilə bağlı ən son yeniliklər, Avropa və Mərkəzi Asiya regionunda qida təhlükəsizliyinin təmin olunması və Kodeks standartlarının tətbiqi sahələrində əldə edilmiş nailiyyətlər üzrə təcrübə mübadiləsi aparılıb.

# «Kardiologiya və kardiovaskulyar cərrahiyyədə yeniliklər»

## Naxçıvanda bu mövzuda konfrans keçirilib

**Naxçıvanda 29 Sentyabr – Ümumdünya Ürək Günündə «Kardiologiya və kardiovaskulyar cərrahiyyədə yeniliklər» mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**

Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş konfrans Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi Təcrübi və Tədris Mərkəzinin və Mərkəzi Gömrük Hospitalının birgə təşkilatçılığı, Naxçıvan Baş Gömrük İdarəsinin və Naxçıvan Respublikası Səhiyyə Nazirliyinin dəstəyi ilə təşkil olunub

Konfransda Milli Məclisin və Naxçıvan Ali Məclisinin deputatları, ali təhsil və tibb müəssisələrinin nümayəndələri, Türkiyə Respublikasının tanınmış mütəxəssisləri, Naxçıvan Dövlət Universitetinin (NDU) Tibb fakültəsinin tələbələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzindəki abidəsi önünə gül dəstəsi qoyub, dahi şəxsiyyətin xatirəsini ehtiramla yad ediblər. Daha sonra Heydər Əliyev Muzeyi ziyarət edilib, iştirakçılar Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar.

Tədbirdə Dövlət Himni səsləndirildikdən sonra Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransın açılışında çıxış edən Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov bildirib ki, Ümummilli Lider Heydər Əliyev mürəkkəb geosiyasi şəraitdə, siyasi formasiyaların dəyişdiyi bir mərhələdə xilaskarlıq missiyasını öz üzərinə götürərək ölkəmizin müstəqilliyini təmin etdi və onu beynəlxalq birliyin etibarlı üzvlərindən birinə çevirdi. Qeyd olunub ki, Naxçıvanda baş tutan elmi konfrans tibb sahəsində faydalı müzakirələrin, fikir mübadiləsinin aparılmasına şərait yaradacaq.

Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Milli Məclisin Ailə, Qadın və Uşaq Problemləri üzrə komitəsinin sədri Hicran Hüseynova, Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov, Naxçıvan Tibb Müəssisələrinin İdarəetmə Birliyinin Müşahidə Şurasının sədri Ləman İbrahimova, Naxçıvan Respublikası Ali Məclisinin Sosial siyasət komitəsinin sədri Yeganə Məmmədova, Səhiyyə Nazirliyinin Akademik C.Abdullayev adına Elmi Tədqiqat Kardiologiya İnstitutunun direktoru Gülnaz Dadaşova və NDU-nun rektoru Elbrus İsayev Ümummilli Lider Heydər Əliyevin ölkəmiz, xalqımız qarşısındakı müstəsna xidmətlərindən, tibb sahəsinin inkişafı istiqamətində atdığı addımlardan bəhs edib, həmçinin konfransın əhəmiyyətini xüsusi vurğulayıblar.

Toplantıda «Heydər Əliyev və Azərbaycan səhiyyəsi» adlı videoçarx nümayiş olunub.

Tədbirin elmi hissəsində Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, Əməkdar həkim Rəşad Mahmudov, Ege Universitetinin Tibb fakültəsinin Kardiovaskulyar cərrahiyyə şöbəsinin ürək-damar cərrahı, professor Çağatay Engin, Medicana İnternational İzmir Xəstəxanasının ürək-damar cərrahı, professor Suat Büket, Mərkəzi Gömrük Hospitalının Kardiologiya şöbəsinin rəisi, uzman invaziv kardioloq İlqar Tahiroğlu, KVC şöbəsinin rəisi, uzman ürək-damar cərrahı Elməddin Əliyev və digər mütəxəssislər təqdimatlarla çıxış ediblər.

Həkim, rezident və NDU-nun tələbələri üçün nəzərdə tutulan konfransda yüksəkixtisaslı mütəxəssislər tərəfindən kardiologiya və kardiovaskulyar cərrahiyyədə müasir trendlərlə bağlı təqdimatlar nümayiş olunub və auditoriyanı maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, konfrans Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin «Davamlı Tibbi Təhsil üzrə elm və tədris tədbirlərinin akkreditasiya Qaydaları» əsasında akkreditasiya olunaraq 10 DTT balı ilə qiymətləndirilib. Tədbirin sonunda bütün iştirakçılara sertifikatlar təqdim edilib.

# Ölkəmizdə spinal muskular atrofiyadan əziyyət çəkənlərin problemləri müzakirə olunub



**Ölkəmizdə spinal muskular atrofiya (SMA) xəstəliyi ilə bağlı mövcud vəziyyət, belə xəstələrin yaşadıqları çətinliklər və bu xəstəliyin müalicəsi ilə əlaqədar atıla biləcək addımlar «SMA hər yönü ilə» mövzusunda təşkil olunan dəyirmi masada müzakirə edilib.**

Azərbaycan Pediatriya Cəmiyyəti və «SMA Xəstələrinə Yardım» İctimai Birliyinin birgə təşəbbüsü ilə keçirilən tədbirdə Milli Məclisin deputatları, Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, TƏBİB, UNICEF, Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan nümayəndəliyinin rəhbər heyəti və bir sıra təşkilat nümayəndələri iştirak ediblər.

AZƏRTAC -ın verdiyi məlumata görə, əvvəlcə Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Tədbirdə «SMA xəstəliyi nədir, necə yaranır və müalicə olunur?» mövzusunda təqdimatla çıxış edən **Səhiyyə Nazirliyinin pediatriya üzrə mütəxəssis-eksperti, Azərbaycan Pediatriya Cəmiyyətinin sədri Erkin Rəhimov** bildirib ki, spinal muskular atrofiya nadir irsi genetik xəstəliklər arasında ən ağır fəsadları olan bir xəstəlikdir. SMA bir yaşadək uşaqlarda genetik xəstəliklər arasında ən çox ölümə səbəb olan xəstəliklərin önündədir, irsiyyətlə keçir, ata və ana daşıyıcıdırsa, uşaqların 25 faizində qeydə alına bilər. Buna görə qohum nikahları bu irsi xəstəlik üçün böyük risk amilidir. Nikaha girənlərdə daşıyıcılığın aşkarlanması, SMA şübhəsi varsa, ana bətnində və ya uşaq yeni doğulan kimi test aparılması, skrininq topuq testinə SMA-nın daxil edilməsi xəstəliyin qarşısının alınmasına və vaxtında müalicəsinə imkan yaradır. «Xəstəliyin müalicəsində effektiv dərmanlar olsa da, onlar çox maliyyə tələb edir və valideynlərə belə uşaqlara baxmaq çox çətindir», - deyə E.Rəhimov bildirib.

Ekspertin sözlərinə görə, əvvəllər klassik olaraq SMA-nın üç tipi məlum idisə, hazırda bu xəstəlik beş tipə ayrılır: «Birinci tip xüsusilə ağır növdür. Uşaqlarda çox ağır əzələ zəifliyi, tənəffüs çatışmazlığı kimi əlamətlərlə özünü büruzə verir. Xəstəlik vaxtında aşkar edildikdə müasir dövrdə yeni dərman vasitələri ilə xəstəyə normala yaxın həyat bəxş etmək olar».

Mütəxəssis-ekspert hazırda Azərbaycanda SMA-dan əziyyət çəkən 40-dan çox uşağın olduğunu diqqətə çatdırıb.

**Milli Məclisin Səhiyyə komitəsi sədrinin müavini, həkim-kardioloq Rəşad Mahmudov** deyib ki, dünyada uşaqlarda nadir rast gəlinən genetik xəstəliklərlə mübarizə ölkələr üçün prioritet bir vəzifəyə çevrilib. Belə xəstəliklərdən biri olan SMA ailələrə ciddi şəkildə problemlər yaradır. Həmin xəstəliyin zamanında diaqnozunun qoyulmaması və dərman preparatlarının qəbul edilməməsi vəziyyəti daha da ağırlaşdırır. Milli Məclis belə məsələləri daim diqqətdə saxlayır. «Gələn il üçün qəbul olunacaq maliyyə büdcəsində spinal muskular atrofiya xəstəliyi ilə mübarizəyə maliyyə ayrılmasına nail olmağı hədəfləyirik», — deyən deputat hesab edir ki, vəsaitin ayrılması bu xəstəliklə mübarizədə uğur əldə edilməsinə səbəb olacaq.

**«SMA Xəstələrinə Yardım» İctimai Birliyinin sədri Səməd Həsənli** ölkəmizdə bu xəstəliklə bağlı mövcud vəziyyət və SMA xəstələrinin yaşadığı çətinliklər barədə tədbir iştirakçılarına məlumat verib. SMA-nın müalicə edilməsi nəticəsində həmin xəstəlikdən əziyyət çəkən körpələr arasında ölüm hallarının ciddi şəkildə azaldığını və həyat keyfiyyətinin artdığını deyib.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əlillik siyasəti şöbəsinin müdiri Sabir Qocayev** bildirib ki, ötən il qüvvəyə minən yeni əlillik meyarlarında həm spinal muskular atrofiya, həm də əvvəllər əlillik meyarlarında olmayan bir çox xəstəliklərə əlillik təyinatı nəzərdə tutulub və aparılır. Otuza yaxın SMA diaqnozlu uşağa artıq əlillik təyinatı aparılıb: «Meyarlara edilmiş son dəyişikliklərə əsasən, həmin uşaqlara əlillik xəstəliyin ağırlıq səviyyəsindən asılı olaraq müəyyən edilir, buna müvafiq olaraq da sosial ödənişlər həyata keçirilir. Əgər əvvəllər uşaqların hamısına xəstəliyin ağırlığından asılı olmayaraq, eyni məbləğdə - 200 manat sosial ödəniş verilirdisə, yeni qanunvericiliklə nisbətən ağır diaqnozu olan uşaqlara ödənişlərin məbləği iki dəfədən çox artıb. Bu, onların sosial müdafiəsi üçün xüsusi əhəmiyyət kəsb edir.

Tədbirdə Gürcüstandan dəvət edilmiş mütəxəssis professor Nino Nana Tatişvili beynəlxalq təcrübə barəsində danışıb, SMA xəstəliyinin müalicəsində inqilabi kəşfə nail olunduğunu diqqətə çatdırıb.

Çıxışlardan sonra dövlət rəsmiləri ilə mövcud vəziyyət və atıla biləcək addımlarla bağlı diskussiya aparılıb. Təkliflər arasında SMA xəstəliyinin müalicəsinin icbari tibbi sığortanın xidmətlər zərfinə daxil edilməsi və ya bu sahədə dövlət proqramının qəbul olunması da var.

Tədbir çərçivəsində həkimlər üçün treninqlər də təşkil olunub.

# Ulu Öndər Heydər Əliyev üçün səhiyyənin və tibb elminin inkişafı daim prioritet idi

**Bakıda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş «Onkoloji xəstəliklərin müasir müayinə və müalicə üsulları» mövzusunda konfrans keçirilib. Tədbir Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzi, Azərbaycan Onkoloqlar Cəmiyyəti və Türkiyənin Bayındır Xəstəxanası ilə birgə təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, konfransın əvvəlində Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin Dövlət himnləri səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş sənədli film nümayiş olunub.

Konfransı Milli Onkologiya Mərkəzinin baş direktoru, akademik Cəmil Əliyevin adından **baş həkim Azad Kərimli** açıb. O, tədbirdə onkoloji xəstəliklərin müayinə və müalicəsində son nailiyyətlərin, müasir yanaşmaların qarşılıqlı qardaşlıq mühitində müzakirə edilməsinin əhəmiyyətindən bəhs edib: «Türkiyə ilə birlikdə təşkil edilən konfransın həm elmi-praktik, həm də təcrübə mübadiləsi baxımından hər iki tərəf üçün faydalı olacağına ümidvaram».

«Heydər Əliyev və Azərbaycan» mövzusunda məruzə edən baş həkim Ulu Öndərin həyata keçirdiyi siyasət nəticəsində ölkəmizdə bütün sahələrin, o cümlədən səhiyyənin inkişafından danışıb. Qeyd olunub ki, Heydər Əliyev üçün insanların sağlamlığı, səhiyyənin və tibb elminin inkişafı, savadlı, bilikli, əsl peşəkar həkim kadrlarının hazırlanması prioritet olub. Ümummilli Liderin Azərbaycana rəhbərliyi illərində respublikada həkim kadrlarının və təbabət alimlərinin hazırlığının yüksək vüsət aldığı, yeni elmi mərkəzlərin açıldığı, təbabət üzrə elmi-tədqiqat institutlarının fəaliyyətinin canlandırıldığı, ölkədə tibb elminin müxtəlif istiqamətləri üzrə konfransların, forumların keçirildiyi diqqətə çatdırılıb. «Bu gün digər sahələrdə olduğu kimi, səhiyyə sahəsində də Ulu Öndərin siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının səhiyyəmizə diqqət və qayğısı, bu sahədə atdığı mühüm addımlar, ümumiyyətlə, ölkədə həyata keçirilən sosialyönümlü siyasət Ulu Öndərin strategiyasının uğurla davam etdirilməsinin təzahürüdür», – deyə A.Kərimli qeyd edib.

Konfrans sessiyalarla davam edib.



Tədbirdə Milli Onkologiya Mərkəzi, Azərbaycan Tibb Universiteti, Milli Hematologiya və Transfuziologiya Mərkəzinin mütəxəssisləri və Türkiyə Bayındır xəstəxanasından olan həkimlər bədxassəli şişlərin müasir diaqnostika və müalicəsi mövzusunu əhatə edən təqdimatlarla çıxış ediblər. Konfrans zamanı baş-boyun, süd vəzi, qadın reproduktiv sistemi, qastrointestinal və digər lokalizasiyalı şişlərə yanaşma mövzusu ətrafında geniş müzakirələr aparılıb.

Türkiyənin Bayındır xəstəxanasının nümayəndəsi Cem Talas çıxışında qeyd edib ki, texnologiyanın inkişafı, biliklərin artması xərçəng xəstələrinin müalicəsində müsbət nəticələr verir: «Hazırda bu sahədə xeyli yeniliklər var. Burada «ağıllı» dərman tətbiqləri, immunoterapiyalar, eləcə də genetik araşdırmalarla seçilən dərmanlar, bütün orqanizmə təsir etmədən müəyyən orqanlara yönəlmiş kimyaterapiya müalicələri ön plana çıxır. Həmin müalicə üsullarından sonra ona uyğun aparılan radiofrekans ablasiya, vaskulyar və nonvaskulyar müdaxilə prosedurları xəstənin ömrünün uzadır. Kemosaturasiya kimi spesifik kimyaterapiya üsulları ilə yüksək dozada kimyaterapiya dərmanlarının bütün orqanizmə təsir etmədən, yalnız həmin orqandakı xəstəliyə yönəlmiş tətbiqi nəticəsində böyük nailiyyətlər əldə edilir. Bu, xəstələrin sağalmasına və ömrünün uzanmasına töhfə verir». Mütəxəssis xərçəngin müalicəsində erkən diaqnozun vacibliyini xüsusi vurğulayıb. Bildirib ki, erkən diaqnoz, uğurlu cərrahi müdaxilə və kompleks şəkildə müalicədən sonra dəstək müalicələr tətbiq edilməlidir. Metastazlar olarsa, radioloji müalicə lazım olur. Texnologiyanın inkişafı, biliklərin artması sayəsində xərçəng xəstələrinə müalicədən sonra qoyulan yaşama proqnozu 5 ildən daha çox olur.

Qeyd edək ki, konfrans Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurası tərəfindən davamlı tibbi təhsil üzrə akkreditasiya olunub.

# Kardiologiyanın aktual elmi və praktiki aspektləri müzakirə olunub

**«Heydər Əliyev İli» çərçivəsində «Kardiologiyada komorbid hallarda nə etməli?» mövzusunda debat-müzakirə formatında elmi-praktik konfrans keçirilib.**

Səhiyyə Nazirliyi Akademik C.Abdullayev adına Elmi Tədqiqat Kardiologiya İnstitutu (ETKİ) tərəfindən təşkil edilən tədbir Ümumdünya Ürək Gününə həsr olunub.

Tədbirdə Milli Məclisin deputatları, Azərbaycanın və Türkiyənin tanınmış elm xadimləri, tibb müəssisələrinin nümayəndələri, Azərbaycan Tibb Universitetinin müəllim və tələbələri, eləcə də «ETKİ könüllüləri» iştirak ediblər.

İlk olaraq Dövlət Himni səsləndirildikdən sonra Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra tədbir iştirakçılarına ETKİ-nin «Ürəyinizi qoruyun» layihəsi çərçivəsində hazırlanmış videoçarx nümayiş olunub.

**ETKİ-nin direktoru Gülnaz Dadaşova** öz çıxışında Ulu Öndərin ölkəmizdə səhiyyə sahəsində gördüyü mühüm işlərdən, Prezident İlham Əliyevin rəhbərliyi altında əhalinin sağlamlığının qorunması istiqamətində atılan addımlardan bəhs edib. O, konfransın ölkəmizdə kardiologiyanın inkişafına böyük töhfə verəcəyini bildirib.

Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyətinin sədri, professor **Kamran Musayev,** Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini, həkim-kardioloq **Rəşad Mahmudov** Ulu Öndərin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən danışıb, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlar nəticəsində Azərbaycan səhiyyəsinin gündən-günə inkişaf etdiyini, əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin getdikcə artdığını qeyd ediblər.

İzmir Medicana Beynəlxalq Xəstəxanasının professoru **Suat Büket** Azərbaycanda kardiologiya və kardiovaskulyar cərrahiyyə sahəsində irəliləyişlər olduğunu, ölkəmizdə aparılan kardioloji əməliyyatların Türkiyədə icra olunan əməliyyatlardan çox da fərqlənmədiyini diqqətə çatdırıb.

300-ə yaxın həkimin iştirakı ilə keçirilən konfransda kardiologiyanın aktual elmi və praktiki aspektlərinə dair məruzələr dinlənilib, mövzu ilə bağlı müzakirələr aparılıb və suallar cavablandırılıb.

# Şəhid və qazi ailələrinin üzvləri üçün tibbi aksiya keçirilib

**Səhiyyə Nazirliyinin Akademik C.Abdullayev adına Elmi Tədqiqat Kardiologiya İnstitutunda (ETKİ) şəhid və qazi ailələrinin üzvləri üçün tibbi aksiya keçirilib.**

ETKİ-nin direktoru Gülnaz Dadaşovanın sözlərinə görə, Azərbaycan Respublikasında Anım Günü ilə ələqədar olaraq keçirilən aksiyada Bakı və Sumqayıt şəhərlərində, Abşeron və digər rayonlarda yaşayan, həmin həssas kateqoriyadan olan 150-dən çox vətəndaş kardioloji, endokrinoloji, şüa-diaqnostika və nevroloji müayinələrdən keçiblər: «İnstitut şəhid ailələri və qazilər üçün mütəmadi olaraq aksiyalar keçirir. Bu hər birimizin mənəvi borcudur. Həkimlərimizin hər biri sevə-sevə bu qəbildən olan vətəndaşlara xidmət göstərir. Belə nəcib təşəbbüslər bundan sonra da davam etdiriləcək».



Baş həkim Rza Səmədov bildirib ki, müayinədən keçənlərə EKQ, ExoKQ və USM müayinəsi, müasir beynəlxalq standartlara cavab verən laborator müayinələri aparılıb. Müayinələrin nəticələrinə əsasən xəstələrə müvafiq müalicələr təyin edilib, digər patologiyalar aşkar olunan şəxslər isə ixtisaslaşmış tibb müəssisələrinə yönləndiriliblər: «İstər müharibə, istərsə də postmüharibə dövründə yaralıların, qazilərin sağalması üçün əlimizdən gələni əsirgəməmişik. Müharibədən sonrakı dövrlərdə təkcə paytaxtda deyil, Gədəbəy, Tərtər, Şamaxı, Cəlilabad və s. rayonlarda aksiyalar keçirmişik. Gündəlik fəaliyyətimizdə də həmin kateqoriyadan olan vətəndaşlara ən yüksək səviyyədə tibbi xidmət göstərməyi ən ümdə borcumuz hesab edirik».

Elmi Tədqiqat Kardiologiya İnstitutunda yüksək səviyyədə təşkil olunan tibbi aksiya vətəndaşlar tərəfindən məmnunluq hissi ilə qarşılanıb. Vətən müharibəsi şəhidi Həsən Quliyevin atası Yalçın Quliyev aksiyada göstərilən xidmətlərdən razılığını bildirib və minnətdarlığını ifadə edib.

# Tibb Universitetinin nəzdində Psixoloji Mərkəz yaradılıb

**Azərbaycan Tibb Universitetinin (ATU) Böyük Elmi Şurasının qərarına əsasən, bu tibb təhsili müəssisəsinin nəzdində psixoloji mərkəz yaradılıb.**

Universitetdən bildirildiyinə görə, mərkəzdə ATU-nun professor-müəllim və işçi heyətinə, həmçinin tələbələrə psixoloji yardım göstərilir. Mərkəzin rəhbəri, klinik psixoloq və psixoterapevt Günel Abbasovanın sözlərinə görə, şəxsi həyatında, sosial mühitlə bağlı, həmçinin adaptasiya olunmaqda çətinliklər yaşayan həkim, müəllim və ya inzibati-texniki işçilər, eləcə də tədrisdə problemləri olan tələbələr bu mərkəzə müraciət edə bilərlər.

Mərkəz ATU-nun beş klinik psixoloqunun fəaliyyətini əhatə edir. Belə ki, Tədris Terapevtik Klinikada 3, Lökbatan poliklinikasında 1 və Yasamal rayonunda yerləşən 16 saylı poliklinikada 1 nəfər olmaqla, mütəxəssislər ehtiyacı olanları qəbul edirlər. İş qrafiki səhər saat 9-dan axşam saat 6-ya kimidir. Konsultasiyalar 3 dildə – Azərbaycan, rus və ingilis dillərində aparıldığından, xarici tələbələr də məsləhət üçün müraciət edə bilər.

# FHN daha bir neçə tibb müəssisəsində rentgen-müayinə fəaliyyətini məhdudlaşdırıb

**Fövqəladə Hallar Nazirliyinin (FHN) Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi səlahiyyətlərinə uyğun olaraq ölkə ərazisində nüvə və radioloji fəaliyyət sahəsində təhlükəsizliyin təmin olunması istiqamətində zəruri tədbirlərin görülməsini davam etdirir.**

FHN-in mətbuat xidmətindən bildiriblər ki, "Bakı Baş Səhiyyə Mərkəzi" Publik Hüquqi Şəxsin müraciəti əsasında, Agentliyin əməkdaşları paytaxtın Səbail rayonundakı 33 nömrəli Şəhər Poliklinikasının 1-ci şöbəsindəki rentgen cihazına baxış keçiriblər. Cihazın istismarının məhdudlaşdırılması barədə qərar qəbul olunub.

Agentliyin Akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanasında keçirdiyi planlı yoxlama tədbirləri zamanı radiasiya təhlükəsizliyi tələblərinin pozulmasına dair çoxsaylı faktlar aşkarlanıb. Bu pozuntularla əlaqədar tibb müəssisəsinin vəzifəli şəxsi barəsində qanunvericiliyin tələblərinə uyğun olaraq protokol tərtib edilərək inzibati tənbeh növü tətbiq olunub. Həmçinin nöqsanların aradan qaldırılması üçün müəssisəyə vaxt verilib. Bununla belə, həmin müddətdə nöqsanların aradan qaldırılmadığı müəyyən edilib.

Qeyd olunanları və radioloji fəaliyyətlə bağlı aşkarlanmış nöqsanların insan həyatı və sağlamlığı üçün yaratdığı təhlükəni nəzərə alaraq, Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi qanunvericiliyin tələblərinə uyğun olaraq Akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanasında rentgen kabinetlərinin fəaliyyətini dayandırıb.

Nüvə və radioloji fəaliyyət sahəsində təhlükəsizliyin təmin olunması istiqamətində Agentliyin gördüyü zəruri tədbirlər çərçivəsində, «Bakı Baş Səhiyyə Mərkəzi» PHŞ-nin müraciəti əsasında paytaxtın Xəzər rayonundakı 45 nömrəli Şəhər Poliklinikasında radiasiya təhlükəsizliyi ilə bağlı vəziyyətin qiymətləndirilməsi üçün baxış keçirilib.

Baxış zamanı poliklinikada mövcud vəziyyətin radiasiya təhlükəsizliyi tələblərinə cavab verməndiyi və «xüsusi icazə»nin alınmadığı nəzərə alınaraq, tibb müəssisəsinin balansında olan bir rentgenoqrafiya və bir portativ rentgen cihazının istismarının məhdudlaşdırılması barədə qərar qəbul olunub.



# AEM avqustda 32 aptekdə yoxlamalar aparıb

Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi qanunvericiliyə uyğun olaraq əczaçılıq müəssisələrində nəzarət yoxlamaları aparır.

Mərkəzdən verilən məlumata görə, 2023-cü il avqustun 1-dən avqustun 31-dək 32 aptekdə yoxlamalar həyata keçirilib.

Aparılan yoxlamalar nəticəsində 3 əczaçılıq müəssisəsində nöqsanlar aşkarlanaraq protokol tərtib edilib.

# AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

**Lənkəran Şəhər Psixiatriya Xəstəxanası**

Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: Nəsimi küç., 92*
*Telefon: (02525) 4-44-79*

**Gəncə Şəhər Dezinfeksiya Stansiyası**

Tibbi-statistik - 1.0

*Ünvan: Bursa küç,46*
*Telefon: (02225) 3-81-53*

**Mingəçevir Şəhər Psixonevroloji Dispanseri**

Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: 20 Yanvar küç.,228, (köhnə tibb şəhəri)*
*Telefon: (02427) 5-77-76*

**Gəncə Şəhər Gigiyena və Epidemiologiya Mərkəzi**

Sanitar-feldşer - 1.0

*Ünvan: Əzizbəyov küç., 371*
*Telefon: (02225) 6-12-43*

**6 nömrəli Uşaq Somatik Sanatoriyası**

Müalicəvi bədən tərbiyəsi üzrə təlimatçı - 1.0

*Ünvan: S.Orucov küç.*
*Telefon: 445-11-25*

**«Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu» PHŞ**

Kiçik elmi işçi - 1.0 (Neonatologiya üzrə elmi şöbə)
Kiçik elmi işçi - 2.0 (Analitik tibbi informasiya və monitorinq üzrə elmi şöbə)
Tibb bacısı (qardaşı) - 2.0 (Yenidoğulmuşların reanimasiya və intensiv terapiyası şöbəsi)
Tibb bacısı (qardaşı) - 1.0 (Hamiləliyin patologiyası şöbəsi)

*Ünvan: B.Ağayev küç., 17/18*
*Telefon: 510-09-52*

**Şuşa Rayon Gigiyena və Epidemiologiya Mərkəzi**

Sanitar-feldşer - 1.0

*Ünvan: Nərimanov rayonu, Dəmirçizadə küç,*
*Telefon: (050)590-99-52*

**Siyəzən Rayon Gigiyena və Epidemiologiya Mərkəzi**

Sanitar-feldşer - 1.0
Feldşer-laborant - 3.0
Həkim-epidemioloqun köməkçisi - 1.0
Entomoloqun köməkçisi - 1.0
Tibbi-statistik - 1.0

*Ünvan: Babək pr.,47*
*Telefon: (02330) 4-21-79*

**Abşeron Rayon Gigiyena və Epidemiologiya Mərkəzi**

Entomoloqun köməkçisi - 1.0

*Ünvan: H.Əliyev pr., 39*
*Telefon: 342-09-40*

**Qax Rayon Gigiyena və Epidemiologiya Mərkəzi**

Sanitar-feldşer - 1.0

*Ünvan: 9 Aprel küç., 5*
*Telefon: (02425) 5-49-34*

**«Elmi-Cərrahiyyə Mərkəzi» PHŞ**

Tibb bacısı (qardaşı) - 6.0

*Ünvan: Şərifzadə küç., 196*
*Telefon: 432-12-14*

**ATU-nun Tədris Cərrahiyyə Klinikası**

Tibb bacısı (qardaşı) - 10.0

*Ünvan: Mirqasımov küç., 2*
*Telefon: 449-82-54*

**«Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu» PHŞ**

Kiçik elmi işçi - 1.0 (Terapiya bölməsi)

*Ünvan: Xətai pr., 9*
*Telefon: 496-07-97*

**Mingəçevir Şəhər Dezinfeksiya Stansiyası**

Çağırış üzrə tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: H.Z.Tağıyev küç., 46*
*Telefon: (02427) 5-91-42*

**«Respublika Gigiyena və Epidemiologiya Mərkəzi» PHŞ**

Feldşer-laborant - 1.0

*Ünvan: A.Manaf küç., 22*
*Telefon: 421-63-41*

**4 nömrəli Uşaq Somatik Sanatoriyası**

Tibb bacısı (qardaşı) - 1.0 (fizioterapiya və tibbi bərpa kabineti)
Müalicəvi bədən tərbiyəsi üzrə təlimatçı - 1.0
Tibb bacısı (qardaşı) - 2.0
Tibbi-statistik - 1.0

*Ünvan: Şüvəlan qəs., A.Sultanova küç., 28*
*Telefon: 454-15-98*

**«Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu» PHŞ**

Tibb bacısı (qardaşı) - 5.0
Əməliyyat otağının tibb bacısı (qardaşı) - 3.0
Anestezist - 2.0
Laborant - 2.0
Rentgen-texnik - 2.0

*Ünvan: E.Süleyman küç., 2514*
*Telefon: 421-50-91*

**Xızı Rayon Gigiyena və Epidemiologiya Mərkəzi**

Tibbi-statistik - 1.0
Sanitar-feldşer - 2.0
Həkim-epidemioloqun köməkçisi - 2.0
Həkim-parazitoloqun köməkçisi - 1.0
Entomoloqun köməkçisi - 1.0
Feldşer-laborant - 1.0
Təlimatçı dezinfektor - 1.0

*Ünvan: Vüsaqi küç., 26*
*Telefon: (02331) 5-05-29*

**Ədliyyə Nazirliyinin tibb xidmətinə qulluğa qəbulla bağlı müsabiqə davam edir**

Ədliyyə Nazirliyi tibb xidmətinin kadr korpusunun müsabiqə və şəffaflıq əsasında hazırlıqlı və zəruri peşə keyfiyyətlərinə malik kadrlarla komplektləşdirilməsi tədbirləri davam etdirilir.

Bununla əlaqədar «Ədliyyə orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikası Qanununun tələblərinə cavab verən Azərbaycan Respublikasının vətəndaşları açıqmüsabiqədə iştrak etmək üçün dəvət olunur.

Bildirilir ki, vakant ştat vahidləri tibb xidmətinin penitensiar müəssisələrindəki qurumlarında olmaqla aşağıdakı ixtisaslar üzrədir:

**Ali tibb təhsili üzrə**
Həkim-terapevt
Hekim-cərrah
Şüa diaqnostikası üzrə həkim
Həkim-travmatoloq
Həkim-nevropatoloq
Həkim-anastezioloq-reanimatoloq
Həkim-infeksionist
Həkim-endoskopist
Həkim-ftiziatr
Həkim-psixiatr

**Orta tibb ixtisas təhsili üzrə**
Feldşer
Laborant
Tibb bacısı (qardaşı)

***Müsabiqədə iştrak etmək üçün sənədlər Ədliyyə Nazirliyi Tibb baş idarəsinin inzibati binasında (Bakı Şəhəri, Nərimanov rayonu, Ceyhun Hacıbəyli küçəsi 16 və 18) qəbul olunur. Həmçinin müraciətlər elekton poçt ünvanı (medical.department@justice.gov.az) vastəsilə də edilə bilər.***

***Əlavə məlumatları (012) 493-30-91 və (012) 493-06-50 nömrəli telefonlara zeng etməklə əldə etmək mümkündür.***

**Suraxanı Rayon Gigiyena və Epidemiologiya Mərkəzi**

Entomoloqun köməkçisi - 1.0

*Ünvan: Ş.Məhərrəmov küç., 1*
*Telefon: 452-24-07*

**Mingəçevir Şəhər Gigiyena və Epidemiologiya Mərkəzi**

Sanitar-feldşer - 1.0

*Ünvan: Xocalı küç., 3*
*Telefon: (02427) 5-92-41*

Baş redaktor:
N.MƏCİDOVA
Baş redaktorun müavini:
S.NƏBİYEVA
Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.
Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*
Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92
Ünvan: Mirəsədulla Mirqasımov küç., 1. Səhiyyə Nazirliyi, 2-ci mərtəbə, 249-cu otaq
Tel./faks: (012) 596-06-61
E-mail: tibbqazeti@mail.ru
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.
İndeks: 1065 Tiraj: 9350

# Bakıda II Beynəlxalq Onkoqastrohepatoloji Konfrans keçirilib

**Bakıda Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilən «II Beynəlxalq onkoqastrohepatologiya» adlı konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, ikigünlük tədbir Milli Onkologiya Mərkəzi, Azərbaycan Qastroenteroloq və Hepatoloqlar İctimai Birliyi və Azərbaycan Onkoloqlar Cəmiyyəti tərəfindən birgə təşkil edilib.

Konfransın əvvəlində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Torpaqlarımız uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş film nümayiş olunub.

Milli Onkologiya Mərkəzi baş direktorunun müavini, tibb üzrə fəlsəfə doktoru Fuad Quliyev Ulu Öndər Heydər Əliyevin Azərbaycan səhiyyəsinin inkişafındakı müstəsna rolundan danışıb. F.Quliyev Milli Onkologiya Mərkəzinin baş direktoru, akademik Cəmil Əliyevin adından konfrans iştirakçılarını salamlayaraq, onlara uğurlar diləyib.

Azərbaycan Qastroenteroloq və Hepatoloqlar İctimai Birliyinin sədri, Seçenov Universitetinin Bakı filialının Daxili xəstəliklər kafedrasının dosenti Gülnarə Ağayeva iştirakçıları salamlayaraq uğurlar diləyib.

Tədbirdə Azərbaycan nümayəndələri ilə yanaşı, Türkiyə, Pakistan, Misir, Hindistan, Yaponiya, Özbəkistandan olan mütəxəssislər də iştirak ediblər.

Konfrans çərçivəsində mütəxəssislər qastrointestinal və qaraciyər xəstəliklərinin müasir diaqnostika və müalicə üsullarını əhatə edən mövzularla çıxış ediblər.

Tədbirin praktiki hissəsi olaraq icra olunan prosedurlar əməliyyat otağından iştirakçıların izləməsi üçün konfrans zalına canlı yayımlanıb.

# Könüllü qanvermə aksiyaları təşkil olunub

**İrsi və qazanılmış qan xəstəliklərindən əziyyət çəkən uşaqlara dəstək olmaq və onlar üçün tədarük olunan qan ehtiyatını artırmaq məqsədilə sentyabr ayında bir sıra könüllü qanvermə aksiyası keçirilib.**

Onlardan biri «AzerGold» Qapalı Səhmdar Cəmiyyətində təşkil edilib. Cəmiyyətdən AZƏRTAC-a bildirilib ki, «AzerGold», eləcə də onun törəmə şirkətləri olan «Daşkəsən Dəmir Filiz» Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) və «AzerBlast» MMC-nin əməkdaşları könüllü olaraq aksiyada iştirak edərək, qan veriblər.

Səhiyyə Nazirliyi Milli Hematologiya və Transfuziologiya Mərkəzinin (MHTM) xüsusi tibb briqadasının həkim-hematoloqları tərəfindən əvvəlcə hər bir donorun sağlamlığı müvafiq tibbi müayinə ilə yoxlanılıb, daha sonra onlardan qan götürülüb. Toplanan qan ehtiyatı laboratoriya şəraitində yoxlanılaraq, talassemiya, hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkən uşaqların müalicəsində istifadə olunacaq.

Digər aksiya Suraxanı Rayon İcra Hakimiyyəti və MHTM-nin birgə təşəbbüsü ilə təşkil olunub. Aksiya zamanı 100 nəfərə yaxın könüllüdən qan götürülüb.

Növbəti qanvermə aksiyası «Avrora» MMC-də keçirilib. Şirkətin mərkəzi ofisində Avrora Qrup və MHTM Mərkəzi Qan Bankının birgə təşkilatçılığı ilə reallaşdırılan aksiyada şirkətin istehsal, ofis və satış əməkdaşları iştirak ediblər. Mərkəzi Qan Bankı tərəfindən ezam olunmuş xüsusi tibbi briqadanın həkim-hematoloqları tərəfindən hər bir donorun sağlamlığı öncədən müəyyən olunub. Onlardan qan analizi götürülərək sağlam olub-olmamaları müəyyənləşdirilib və səhhətində problemi olmayan donorlardan qan götürülüb.

Daha bir aksiya "Dəniz Mall" ticarət mərkəzinin dəstəyi və Azərbaycan Qan Donorluğunun İnkişafı Mərkəzinin təşkilatçılığı, həmçinin Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Mərkəzi Qan Bankının tərəfdaşlığı ilə həmin ticarət mərkəzində baş tutub. Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş, «Sağlam olaq, donor olaq» şüarı altında keçirilən aksiyada toplanan qan ehtiyatı yoxlanılaraq talassemiya, hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkən şəxslər üçün istifadə olunacaq.

27 Sentyabr - Anım Günü ilə əlaqədar «Hər damla qan - qurtarılan bir can!» devizi altında qanvermə aksiyası keçirilib. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, aksiya «ASAN xidmət»in, «ASAN Könüllüləri» Təşkilatının və Mərkəzi Qan Bankının birgə təşkilatçılığı ilə baş tutub. 7 saylı Bakı «ASAN xidmət» mərkəzində gerçəkləşən tədbirdə xidmətin əməkdaşları və könüllülərlə yanaşı, vətəndaşlar da iştirak ediblər.

Könüllü qanvermə aksiyalarına Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi də qoşulub. Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Anım Gününə həsr olunmuş könüllü qanvermə aksiyasında Mərkəzi Qan Bankının xüsusi tibbi briqadasının həkim-hematoloqları donorların sağlamlıq vəziyyətini müəyyən etdikdən sonra onlardan qan götürüblər. Qan nümunələri laboratoriyada bir daha müayinə edildikdən sonra qana ehtiyacı olan xəstələrin müalicəsində istifadə olunacaq.







Solvitale
Ferrous
1 kapsul x 1 dəfə
yeməkdən əvvəl
Solvitale
Ferrous
YENİ
FORMULDA
TƏKMİLLƏŞDİRİLMİŞ
DƏMİR
HB
SOLEPHARM
PHARMACEUTICALS


Solvitale Prenatal care
Solvitale
Prenatal
care
Axşam
kapsulu
Səhər
kapsulu
Yeni formul
Hamilələr üçün
ağıllı vitamin
və minerallar
HB
SOLEPHARM
PHARMACEUTICALS


AVROMED
Mocom M10
Stomatoloji qurğu
Mocom
firması istehsalı olan
müxtəlif konfiqurasiyalı
stomatoloji qurğular
Mocom Firması avadanlıqlarının
Respublikamızda yeganə
distribyutoru Avromed Dentaldır
@avromed_company
@avromedcompany
avromed.az
info@avromed.az